RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 287 (8310) ÇƏRŞƏNBƏ, 25 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# DOST layihəsi Azərbaycanın yeni brendini formalaşdırıb

## Azərbaycan Prezidenti İlham Əliyev 2 saylı DOST mərkəzinin açılışında iştirak edib

Dekabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlət başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev binada yaradılan şəraitlə tanış oldu.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, 2 saylı DOST mərkəzinin binası 2 mərtəbəlidir. Bina müasir üslubda layihələndirilib və mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir. Bu DOST mərkəzi gün ərzində 250-300 vətəndaşı qəbul edə biləcək. Mərkəz Bakının Xəzər və Pirallahı rayonlarının əhalisinə xidmət edəcək.

*Ardı 2-ci səh.*



# Mehriban Əliyeva:

## "İlham Əliyevin şəxsi keyfiyyətləri, bilikləri, qətiyyəti, yenilməz iradəsi, cəsarəti, məqsədyönlülüyü Azərbaycanı həmişə yeni qələbə və nailiyyətlərə doğru aparır"



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dövlət başçısının 58 yaşı tamam olması münasibəti ilə İnstaqram hesabında paylaşım edib.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Onun şəxsi keyfiyyətləri, bilikləri, qətiyyəti, yenilməz iradəsi, cəsarəti, məqsədyönlülüyü Azərbaycanı həmişə yeni qələbə və nailiyyətlərə doğru aparır. Onun gümrahlığı, tükənməz enerjisi və mehribanlığı hər birimiz üçün layiqli örnəkdir. Bu əlamətdar gündə Prezidentimizə möhkəm cansağlığı, uzun ömür, gözəl əhvali-ruhiyyə arzulayıram! Qoy onun güc mənbəyi olan Azərbaycan xalqının sevgisi və inamı onun gələcək uğurlarının rəhni olsun!" - deyə, paylaşımda qeyd olunur.

# Ölkəmizdə hər bir vətəndaşın sosial məsələlərinin həllinə diqqətlə yanaşılır

## Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə mənzillərin, Qarabağ müharibəsi əlillərinə avtomobillərin təqdim olunması mərasimi keçirilib

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına yaşayış binasında yaradılan şərait barədə məlumat verdi.

Dövlətimiz hər bir Azərbaycan vətəndaşının sosial məsələlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu baxımdan çox mühüm layihələr həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar da öz həyatlarında hiss edirlər. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması, onların avtomobillə təmin olunması üçün ardıcıl tədbirlər görülür.

*Ardı 2-ci səh.*

# Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.18.3-cü yarımbəndində göstərilən vəsaitin 20 610 000 (iyirmi milyon altı yüz on min) manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2019-cu il*

# İsveçrə Konfederasiyasının yeni seçilmiş Prezidenti zati-aliləri xanım Simonetta Sommaruqaya

Hörmətli xanım Sommaruqa!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, yenidən dövlət başçısı kimi fəaliyyət göstərəcəyiniz qarşıdakı dövrdə Azərbaycan ilə İsveçrə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafı və möhkəmləndirilməsi istiqamətində səylərimizi davam etdirəcəyik.

Fürsətdən istifadə edərək Yeni, 2020-ci ilin gəlişi münasibətilə Sizə təbriklərimi və ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2019-cu il*

# Xarici ölkə rəhbərləri İlham Əliyevi təbrik etdilər

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin** dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Vladimir Putin Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, Azərbaycan xalqının firavanlığı və Azərbaycan dövlətinin inkişafı naminə ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları yüksək səviyyədə mütəmadi olaraq keçirilən görüşləri və bu günlərdə Sankt-Peterburq şəhərindəki təmasları məmnunluqla xatırlayaraq strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əmin olduqlarını bildiriblər. Prezident İlham Əliyev və Prezident Vladimir Putin ölkələrimizin birgə həyata keçirdiyi mühüm layihələrin önəminə toxunaraq, bu gün Samur çayı üzərində yeni avtomobil körpüsünün açılışının genişmiqyaslı əməkdaşlığın dərinləşdirilməsi işinə böyük töhfə verəcəyini qeyd ediblər.

❖ ❖ ❖

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan** dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona Azərbaycan xalqının rifahı və tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev iki ölkənin dövlət başçıları arasında keçirilən görüşlərin əlaqələrimizin inkişafındakı rolunu xüsusi qeyd ediblər. Prezidentlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildiriblər.

❖ ❖ ❖

Dekabrın 24-də **Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Qırğızıstan Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona xalqımızın rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycanla Qırğızıstan arasında dostluq əlaqələrinin inkişafından məmnunluqlarını ifadə edib, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıblar.

❖ ❖ ❖

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev** dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona xalqımızın tərəqqisi naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı ölkələrimiz arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlıq əlaqələrimizin bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olunub.

❖ ❖ ❖

Dekabrın 24-də **Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Serbiya Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona dövlətçilik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycanla Serbiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb və əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildiriblər.

❖ ❖ ❖

Dekabrın 24-də **Gürcüstanın Baş Naziri Giorgi Qaxariya** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Giorgi Qaxariya Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Dövlət başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Baş Nazir Giorgi Qaxariya ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək əlaqələrin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını qeyd ediblər.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# DOST layihəsi Azərbaycanın yeni brendini formalaşdırıb

*Əvvəli 1-ci səh.*





İl ərzində 70 mindən artıq vətəndaşa "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 xidmət göstəriləcək. Mərkəzdə 80 nəfər, "Gənc DOST" proqramı üzrə isə 40 könüllü fəaliyyət göstərəcək. Burada "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" də var. Beləliklə, bu mərkəz də vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"yə müraciət edib və "bir pəncərə"dən faydalanmasına imkan verir.

Qeyd edək ki, Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlət başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il avqustun 9-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. DOST layihəsi artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Prezident İlham Əliyev DOST mərkəzinin bir qrup işçisi və "Gənc DOST" könüllüləri ilə görüşdü.

**Prezident İlham ƏLİYEV** dedi:

- Bu gün DOST mərkəzinin ikinci binası istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. DOST mərkəzlərinin yaradılması çox gözəl, əlamətdar hadisədir. Bu mərkəzlər sosial təminat sahəsində çox böyük dönüş yaradıbdır, innovasiyaların və müasir xidmətlərin göstərilməsi üçün çox gözəl alət olubdur. Şadam ki, DOST mərkəzlərinin yaradılması artıq geniş vüsət alır və bu, il ərzində açılan ikinci mərkəzdir. Gələn il də Bakıda və rayonlarda bir neçə mərkəzin açılışı nəzərdə tutulur. Beləliklə, gələn il DOST mərkəzlərinin əhatə dairəsi genişlənəcək və əhalimizin yarıdan çox hissəsini əhatə edəcək.




DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də "ASAN xidmət" mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi "ASAN xidmət" öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaq.

Digər önəmli məsələ ondan ibarətdir ki, bir binada 130-dan çox xidmət göstərilir. Əminəm ki, buraya müraciət edən və edəcək bütün vətəndaşlar bu xidmətdən razı qalacaqlar. Birinci mərkəzin açılışından sonra DOST mərkəzinə cəmi 6 ay ərzində 60 mindən çox müraciət olmuşdur və vətəndaşların məmnunluq əmsalı çox yüksəkdir. Bu, onu göstərir ki, həm bütün proses çox düzgün təşkil edilib və həm də bu mərkəzlər məhz innovativ əsaslarla fəaliyyət göstərir. Digər tərəfdən, birinci DOST mərkəzində çalışan işçilər və könüllülər vətəndaşlara çox gözəl xidmət göstərirlər. Bu da məni çox sevindirir. Çünki biz ictimai xidmətlər sahəsində yeni davranış qaydaları tətbiq edirik və xidmət mədənidir, çox dəqiqdir. Əminəm ki, DOST mərkəzinə müraciət edən hər bir şəxs buradan razı qayıdır.

Şadam ki, burada işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir. Bu, Azərbaycan gənclərinin fədakarlığını və öz işinə bağlı olduğunu, məsuliyyətlə yanaşdığını göstərir. Eyni zamanda, bu, gənclər üçün də çox gözəl hazırlıq mərhələsidir. Çünki siz gəncsiniz, müstəqil həyata yenicə qədəm qoymağa başlayırsınız və çox gözəl haldır ki, sizin işiniz buradan başlayır. Əminəm ki, burada qazanacağınız təcrübə gələcəkdə sizə kömək edəcək.

Kadr hazırlığı və ölkəmizin gələcək inkişafı baxımından DOST mərkəzlərinin çox böyük faydası var. Yəni, əgər iqtisadi terminlə desək, biz burada multiplikativ səmərə görürük. Bu gün həm vətəndaşlara xidmət, həm sosial təminat sahələrində şəffaflıq, dürüstlük tətbiq olunur və çox ciddi islahatlar aparılır. Mən bu islahatları yüksək qiymətləndirirəm. Müasir xidmət növləri, eyni zamanda, davranış qaydaları, mədəni xidmət formaları, hazırlıq və təcrübə toplanması. Bütün bu amillər burada işləyən hər bir gənc üçün çox önəmlidir. Əminəm ki, siz artıq peşəkar, müasir düşüncəli kadr kimi öz gələcəyinizi quracaqsınız və daha yüksək pilləyə qalxacaqsınız.

İlin sonunda Xəzər rayonunda belə gözəl mərkəzin açılması çox əlamətdar hadisədir. Son dövrlərdə sosial təminat sahəsində böyük işlər görülübdür. Bu il dövlət tərəfindən ən böyük sosial paket tətbiq olunub və bu, 4,2 milyon insanı əhatə edib. Bu, analoqu olmayan sosial təşəbbüsdür ki, həm maaşlar, həm pensiyalar, müavinətlər artırılıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıb. Biz bütün bu işləri vətəndaşların rifah halının yaxşılaşması üçün edirik. İqtisadi imkanlarımız artdıqca, bu işləri görməyə başlamışıq və bu işlər gələcəkdə daha geniş vüsət alacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də çox fəal işləyir, islahatlar aparır, yeni təşəbbüslər irəli sürür. Beləliklə, bu böyük sahə hesab edirəm ki, bundan sonra da çox önəmli aktor kimi özünü göstərəcək. Çünki bizim sosial siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün şəhid ailələri, müharibə əlilləri üçün yeni binanın açılışı nəzərdə tutulur. Bu il 800-dən çox ailə yeni evlərə, mənzillərə köçür. Gələn il bu rəqəm təqribən iki dəfə artıq olacaq. Yəni, bizim iqtisadi inkişafımız imkan verir ki, sosial sahəyə daha böyük vəsait yönəldək. Hazırda 7500 şəhid ailəsi dövlət tərəfindən pulsuz evlər və mənzillərlə təmin olunub və bu proses davam etdiriləcəkdir.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Yeni ildə sizə yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Ölkəmizdə hər bir vətəndaşın sosial məsələlərinin həllinə diqqətlə yanaşılır

*Əvvəli 1-ci səh.*





1997-ci ildən 2018-ciilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci Dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara isə 475 mənzil və fərdi ev verilib. Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər 1998-2018-ci illər ərzində 6155 avtomobillə təmin edilib. Bu il isə daha 600 avtomobilin təqdim olunması nəzərdə tutulur. Yeni inşa olunan binada ümumilikdə bir, iki və üçotaqlı 96 mənzil var ki, onlardan da 62-si Qarabağ müharibəsi əlilinə, 34-ü isə şəhid ailələrinə təqdim olunur. Bu qəbildən olan vətəndaşlara ilin əvvəlindən bəri 700 mənzil və fərdi ev verilib. İlin sonunadək isə 234 mənzil və fərdi evin təqdim olunması planlaşdırılır. Gələn il də bu istiqamətdə layihələr davam edəcək.

Dövlət başçısı mənzil və avtomobillə təmin olunan şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin bir qrupu ilə görüşdü.

Prezident **İlham ƏLİYEV** dedi:

- Bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Bu gün şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə yeni mənzillər verilir. Eyni zamanda, minik maşınları da verilir. Bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bu gözəl binada yaşamaq çox rahat olacaq. Bina ilə tanış oldum. Mənzillərin hər biri yaraşıqlı, işıqlı, gözəl və təmirlidir. Belə də olmalıdır. Siz buna layiqsiniz. Mən dəfələrlə demişəm ki, vətən uğrunda şəhid olmuş insanların xatirəsi bizim üçün həmişə əzizdir. Azərbaycan xalqı şəhidlərimizin xatirəsini həmişə öz qəlbində yaşadır. Müharibədə vuruşmuş və əlil olmuş vətəndaşlar üçün şəraitin yaradılması bizim mənəvi borcumuzdur.

Son illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını vətən uğrunda qurban vermişdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək. Gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur, yəni, bu ildən fərqli olaraq iki dəfə çox. Baxmayaraq ki, bu ilin əvvəlində 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulurdu. Ancaq əlavə vəsaitin ayrılması nəticəsində bu mənzillərin və evlərin sayı 900-ə çatıbdır, o cümlədən yüzlərlə minik avtomobili də verilib. Belə gözəl binada yaşamaq, əlbəttə ki, çox xoş olacaq. Bir daha demək istəyirəm ki, siz buna layiqsiniz.

Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır. İlk növbədə, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar. Eyni zamanda, işğaldan əziyyət çəkən soydaşlarımız, məcburi köçkünlər üçün bu il 5 min mənzil və fərdi ev təqdim olunub. Beləliklə, bu kateqoriyadan olan vətəndaşlara bu il təqribən 6 minə yaxın ev və mənzil verilib. Bu, o deməkdir ki, biz bir şəhər boyda evlər tikmişik və layiq olan vətəndaşlara təqdim etmişik. Mən ikinci ölkə tanımıram ki, bu sahəyə bu qədər diqqət ayrılsın. Bu, bir daha göstərir ki, bizim bu sahədəki siyasətimiz həm düzgündür, həm ədalətlidir. Bu siyasət davam etdiriləcək. Çünki hələ də növbədə dayanan vətəndaşlar var. Şəhid ailələri arasında təqribən 2 mindən çox vətəndaş növbədə dayanır. Onların da problemləri yaxın 2-3 ildə həllini tapacaqdır.

İndi bizim iqtisadi imkanlarımız da yaxşılaşır. Düzgün iqtisadi siyasət aparmaqla biz əlavə gəlirlər əldə etdik. Bu gəlirləri, ilk növbədə, sosial problemlərin həllinə yönəltdik. Bu il 4 milyon 200 mindən çox Azərbaycan vətəndaşı - əhalinin təxminən 40 faizdən çoxu böyük sosial paketlə əhatə olunub. Maaşlar, pensiyalar, müavinətlər, tələbə təqaüdləri, problemli kreditlərin həll edilməsi - bütün bunlar böyük vəsait tələb edir. Biz bu işlərə milyardlarla manat vəsait yönəltmişik və çox düzgün addım atmışıq. Çünki bu, lazım idi. Sosial təminat bizim üçün ən başlıca vəzifədir. Buna nail olmaq üçün bizim iqtisadi imkanlarımız olmalıdır.

*Ardı 3-cü səh.*

# Ölkəmizdə hər bir vətəndaşın sosial məsələlərinin həllinə diqqətlə yanaşılır

*Əvvəli 2-ci səh.*

Ona görə iqtisadi inkişaf nə qədər yüksək templərlə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq, maaşlar, pensiyalar artacaq. Ona görə bu gün ölkəmizdə aparılan islahatlar bu məqsədi güdür. İlk növbədə, sosial sahədə daha böyük nailiyyətlərə nail olmaq üçün biz iqtisadi sahədə düzgün prinsiplər əsasında işimizi qurmalıyıq. Şəffaflıq, dürüstlük, korrupsiya və rüşvətxorluqla mübarizə, iqtisadi islahatlar, struktur islahatları - bütün bunlar ölkəmizə böyük canlanma gətirir.

Builki iqtisadi göstəricilərimiz çox müsbətdir. Əldə edilmiş bütün əlavə gəlirləri biz sosial sahəyə yönəltdik. Bugünkü bu gözəl, 96 mənzildən ibarət binanın açılışı bunun bariz nümunəsidir.

Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm, sizə Yeni ildə yeni uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

❖ ❖ ❖

Sonra mənzillərin sənədlərinin təqdim edilməsi mərasimi oldu.





Yeni binada mənzil alan **İlham Məhərrəmov** dedi: Cənab Prezident, məni xatırlayırsınız?

**Prezident İlham Əliyev:** Bəli, Avropa Oyunlarında.

**İlham Məhərrəmov:** Siz orada görüş zamanı mənə dediniz ki, çox gözəl işlər görürsünüz. O söz mənə stimul verdi. Leyla xanım Əliyevanın dəstəyi ilə yaradılan Boccia İdman Federasiyasının baş katibiyəm. Federasiyamızın yarandığı qısa müddətdə 1 qızıl və 6 gümüş medalımız olub. Olimpiya Komitəsinin rəhbərliyi ilə Beynəlxalq Boccia Federasiyasının görüşündə 2020-ci və 2021-ci illərdə regional çempionatın Azərbaycanda keçirilməsinə nail olduq. Bütün paralimpiyaçılar adından, əlilliyi olan dostlarımız adından ad gününüzü təbrik edir, Sizə uğurlar arzulayıram.

**Prezident İlham Əliyev:** Sağ ol. Bu şəkil 4 il bundan əvvəl - 2015-ci ildə çəkilib. Ona görə gərək bir şəkil də çəkilsin.

**Milli Qəhrəman Sahil Məmmədov** dedi: Çox şadam ki, bu gün Sizin ad gününüzdə bizə gözəl ev hədiyyə edirsiniz. Bunu çox şərəflə qəbul edirik. Sizi ad gününüz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzu edirəm. Gələcək işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

**Zərifə Sultanova:** Çox sağ olun, cənab Prezident.

**Dilarə Mövludova:** Möhtərəm Prezident, mən Sizi təbrik edirəm. Bu gün Sizin ad gününüzdür. Mənim də bu gün ad günümdür. Mənim 81 yaşım tamam olur. Allah ailənizi qorusun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizə cansağlığı arzu edirəm.

**Əvəz Aslanov:** Cənab Prezident, Sizi təbrik edirəm. Çox sağ olun ki, bu günü bizimlə bir yerdə qeyd edirsiniz. Minnətdaram.

Daha sonra avtomobillərin sənədlərinin təqdim edilməsi mərasimi oldu.

**Yaşar Nəsirov:** Cənab Prezident, ad gününüzü təbrik edirik. Bizə göstərdiyiniz qayğıya görə minnətdarlığımızı bildiririk.

**İsgəndər Zeynalov:** Çox sağ olun, cənab Prezident, yüz yaşayasınız.

**Yeganə Allahverdiyeva:** Mən də Sizi təbrik edirəm, möhtərəm Prezident. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Kamal Məmmədov:** Minnətdarıq Sizə, cənab Prezident.

**Vüqar Orucov:** Cənab Prezident, Sizi təbrik edirəm. Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sizi bir daha ürəkdən təbrik edirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu münasibətlə də sizi təbrik edirəm. Bir daha cansağlığı, uzun ömür arzulayıram.

Mərasim iştirakçıları Prezident İlham Əliyevə bir daha minnətdarlıqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Bakı Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 24-də Bakı Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsinin açılışında iştirak edib, əsasən tamamlanmış Park Kvartalı ilə tanış olublar və buradakı parkın abadlaşdırılmasına start veriblər.

AZƏRTAC xəbər verir ki, son illər ərzində Bakı Ağ Şəhər layihəsi çərçivəsində yaradılan infrastruktur insanların rahatlığı və təhlükəsizliyini təmin etməklə yanaşı, paytaxtın görünüşünə əlavə gözəllik verir. Təməli 2011-ci il dekabrın 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulan Bakı Ağ Şəhər layihəsinin baş planında nəzərdə tutulan şəhər tipli 10 universal kvartalın bir neçəsi artıq istifadəyə verilib. Hazırda Bakı Ağ Şəhər layihəsinin yeni Park Kvartalında abadlıq və infrastruktur-kommunikasiya işləri yekunlaşıb. Yaşayış binaları, məktəb və uşaq bağçası, biznes mərkəzi, inzibati dövlət binası, yeraltı avtodayanacaqlar və böyük park kompleksindən ibarət müasir kvartalda sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılır, yeni yollar salınır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına və birinci xanıma ərazidə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, Ağ Şəhərdə tikinti-quruculuq işləri çərçivəsində eni 37 metr, uzunluğu 2 kilometrə çatan Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə birləşməsi istiqamətində işlər görülüb.

Dövlət başçısı və birinci xanım buradakı parkın abadlaşdırılması və genişləndirilməsi planı ilə də tanış oldular.

Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov görülən və görüləcək işlər barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi.

Prezident İlham Əliyev Bakı Ağ Şəhər Mərkəzi Bulvar küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva buradakı parkda ağac əkməklə abadlaşdırma işlərinə start verdilər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Park Kvartalı ilə tanış oldular.













Məlumat verildi ki, artıq bir neçə ildir Mərkəzi Bulvar küçəsinin Xəqani Rüstəmov küçəsindəki dairəyə birləşən hissəsi istismara verilib. Küçəni əhatə edən Paris evləri, quraşdırılmış heykəllər və yaşı yüz illərlə ölçülən dekorativ zeytun ağacları ərazinin bəzəyidir. Fəvvarələr Meydanı və Mərkəzi Park kvartallarını ayıran Mərkəzi Park küçəsi Ağ Şəhərin iki kilometrlik maneəsiz gəzinti zolağı ilə kəsişir və burada piyadalara üstünlük verildiyini bildirən hündür piyada keçidləri salınır. Küçə, eləcə də Park Kvartalının ərazisində qərbdən London memarlıq üslubunda layihələndirilmiş möhtəşəm “Knighstbridge Residence” kompleksi və şərqdən Böyük Park kompleksi və iyirmimərtəbəli müasir binalara keçidləri təmin edir. Müasir şəhər trendlərinə uyğun olaraq, Mərkəzi Bulvar küçəsi ilə Nobel prospektinin kəsişməsində avtomobillərin, piyadaların və velosipedçilərin təhlükəsiz hərəkətini təmin etmək üçün xüsusi yolayrıcı layihəsi işlənilib və həyata keçirilib. Bu yolayrıcında piyada və velosipedçilərin üstünlüyünü qeyd edən zolaqlar və yol nişanları, qoruyucu tumbalar nəzərdə tutulub.

Növbəti mərhələdə Mərkəzi Bulvar küçəsinin Nobel prospekti ilə kəsişməsinin işıqforla tənzimlənməsi, Bulvar yoluna birləşməsi və avtomobillərin bu küçə ilə birbaşa Sahilyanı kvartala və Ağ Şəhər Bulvarına hərəkəti planlaşdırılır. Mərkəzi Bulvar küçəsi Ağ Şəhərin təkrarolunmaz üslubunu əks etdirən xüsusi detallarla bəzədilib - eni 11 metrə çatan səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, səkilərdə küçənin adı daş nişanlarla qeyd edilib, yolgöstəriciləri və xəritələr, incəsənət nümunələri quraşdırılır, piyada keçidləri və avtomobillər üçün xüsusi dayanacaq yerləri təşkil edilir.

Yeni salınmış yaşıllıq zolağında əvvəllər ərazidə yerləşən və 1863-cü ildə ilk dəfə Bakıda tətbiq edilmiş ağ neftin ikiqat təmizlənməsi qurğuları bərpa edilərək saxlanılıb. Burada yaradılan yaşıl istirahət zonalarında çinar, zeytun, palma, şam ağacları, sərv və çox sayda yeni ağaclar əkilib, eləcə də Ağ Şəhər ərazisində illər boyu bitən ağaclar buraya köçürülərək, onlara yeni həyat verilib. Qara şəhərin tarixi irsinə hörmətlə yanaşaraq burada XIX əsrdə dünyanın ən qabaqcıl ağ neftin təmizlənməsi qurğuları, XIX əsrin sonları - XX əsrin əvvəllərində neft çənləri əhatə edən istinad divarı və 1890-1940-cı illərdə əhaliyə təmiz suyun paylanmasını təmin edən pavilyon bərpa edilib. XIX əsrə aid olan neft anbarlarını əhatə edən istinad divarı da qorunub saxlanılıb, divar boyunca Olimpiya kvartalına piyada keçidi salınıb. Yeni salınan yaşıllıq zolağında parka keçid pilləkənləri kompleksi yaradılıb, layihənin tarixi və göstəriciləri haqqında qranit xatirə daşı qoyulub.

Prezident İlham Əliyevə Ağ Şəhərdə mərhələlərlə görülən işlər, Nobel prospekti üzrə xüsusi layihələndirilmiş binalar haqqında ətraflı məlumat verildi. Bildirildi ki, burada yerli və xarici sənətkarların incəsənət nümunələri qoyulub və gələcəkdə bu işlər davam etdiriləcək. Bundan əlavə, Olimpiya kvartalında görülən infrastruktur işləri, o cümlədən eni 80 metr olan Nobel, Babək, Heydər Əliyev prospektlərini, Ziya Bünyadov küçəsini və gələcəkdə tikiləcək bulvar küçələrini birləşdirən yol və digər infrastruktur layihələri barədə məlumat verildi. Qeyd edildi ki, Ağ Şəhərdə ofis, yaşayış, inzibati, dövlət binalarının, parkların və digər tikililərin inşası nəzərdə tutulub.

Görülən işlərdən razılığını bildirən Prezident **İlham ƏLİYEV** dedi.

- Hər il biz ənənəvi olaraq Ağ Şəhərin təməlqoyma günündə görülən işlərlə tanış oluruq və gələcək il üçün planlar tərtib edirik. 2019-cu ildə görülən işlər yüksək səviyyədədir, mən bunu bəyənirəm. 2020-ci ildə də nəzərdə tutulan bütün planlar gərək həyata keçirilsin, o cümlədən yol infrastrukturu. İnvestorlar üçün yeni təkliflər ortaya qoyulmalıdır ki, investorlar Ağ Şəhərin tikintisinin davam etdirilməsinə və tamamlanmasına daha böyük həvəslə vəsait yatırsınlar. Görülmüş işlər münasibətilə sizi təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov görülən işləri yüksək qiymətləndirdiyinə görə dövlət başçısına minnətdarlığını bildirdi və onu doğum günü münasibətilə təbrik etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

# Azərbaycan-Rusiya münasibətlərinin davamlı inkişafı həm regional siyasətdə, həm də bütövlükdə çox mühüm amildir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, Maksim Oreşkin Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Diqqətinizə görə çox sağ olun. Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz.

Bu gün biz əməkdaşlığımızın bir ilini bir növ rəsmən başa vururuq. Bu il çox səmərəli və məhsuldar olub. Mənim fikrimcə, bu il biz həm əvvəlki illərdə, həm də bu il nəzərdə tutduqlarımızın hamısına nail olmuşuq. Əlbəttə, bu il münasibətlərimizin davamlı inkişafı həm regional siyasətdə, həm də bütövlükdə çox mühüm amildir. Buna görə əminik ki, gələn il də uğurlu əməkdaşlıq edəcəyik, nəzərdə tutduğumuz planlar, başladığımız layihələr həyata keçiriləcək. Eyni qayda ilə sizin əvvəlki səfəriniz çərçivəsində iri əczaçılıq zavodu açıldı, yeni maşınqayırma zavodunun təməli qoyuldu. Əlbəttə, rəmzi haldır ki, əməkdaşlığımızın bu ilini ölkələrimizi əlaqələndirən körpünün açılışı ilə başa vururuq. Mən bunu çox əlamətdar hadisə hesab edirəm. Ona görə ki, həm sovet dövründə, həm də postsovet illərində Rusiya ilə Azərbaycanı yalnız bir körpü bağlayırdı, hərçənd onu əsl körpü adlandırmaq da olmaz, o körpü çoxdan köhnəlmişdi. Buna görə yeni körpü biznes, qarşılıqlı faydalı beynəlxalq əməkdaşlıq, nəqliyyat dəhlizi üçün yeni qapılar deməkdir. Beləliklə, ilin məhz bu cür əlamətdar hadisə ilə başa çatması çox rəmzi məna daşıyır.

Bu il ərzində əlamətdar hadisələr çox olub - Prezident Vladimir Vladimiroviç Putin və Rusiyanın digər rəhbərləri ilə mənim görüşlərim, rəsmi nümayəndə heyətlərinin səfərləri, iqtisadi, humanitar sahədə əməkdaşlıq. Gələn il də çox mühüm tədbirlər nəzərdə tutulur, o cümlədən Sankt-Peterburqda keçiriləcək mədəniyyət forumunda Azərbaycan əsas qonaq kimi təmsil olunacaq. Bu, çox şərəfli missiyadır. Biz Rusiya tərəfinə minnətdarıq ki, belə bir fəxri qonaq qismində məhz bizim ölkəmiz seçilib. Bu tədbirə hazırlıq ən yaxın vaxtlarda başlanacaq.

Sizi bir daha salamlamaq istərdim. Şadam ki, tez-tez görüşürük. Buna səbəb həm praktiki, həm də mərasim xarakterli tədbirlərin çox olmasıdır. Sizi görməyə bir daha şadam və yeni ildə sizə uğurlar, dost Rusiyaya yeni qələbələr arzu edirəm.

❖ ❖ ❖

Rusiyanın İqtisadi İnkişaf naziri **Maksim OREŞKİN** dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Mən və həmkarlarım doğum gününüz münasibətilə Sizi bir daha təbrik edirik. Bu gün çox gözəl gündür. Biz gələndə hava dumanlı idi. İndi isə göy qübbəsi altında mavi səma görünür. Bu, çox yaxşı əlamətdir.

Biz hər dəfə Azərbaycana gəlməyə sevinirik. Həqiqətən indi bizim həyata keçirdiyimiz, məntiqi sonluğa çatdırdığımız layihələrin sayı get-gedə artır. Bu, çox yaxşı haldır. Ona görə ki, hər bir belə layihə ölkələrimizi daha da yaxınlaşdırır, iqtisadiyyatımız daha fəal artır, insanların rifahı yaxşılaşır. Buna görə biz bu məqsədlərə istiqamətlənmişik və bu yöndə işləyirik. Biz hər addımda yeni layihələr düşünüb tapmağa çalışırıq, onlar həqiqətən bizim irəliləməyimizə kömək edir. Məsələn, indicə həmkarlarımızla maliyyə məsələsi ilə bağlı bir məqamı müzakirə edirdik. Baxarıq, ola bilsin bu istiqamətdə işləyəcəyik. Rusiyada "Mir" adlanan bir ödəmə sistemi var. Bizim türkiyəli həmkarlarımız bu sistemi öz bazarlarında tətbiq edirlər. Bu, Türkiyəyə gedən rusiyalı turistlər üçün çox münasibdir. Siz bizim qarşımızda turist mübadiləsini inkişaf etdirmək vəzifəsini qoymusunuz. Biz bu göstəricini milyona çatdırmağa çalışırıq. Həqiqətən, turistlərin ölkələrimiz arasında gediş-gəlişi nə qədər sadə, rahat olsa, turist axını bir o qədər çox olacaq. Biz həmkarlarımızla razılığa gəlmişik ki, bu məsələni araşdıraq, həmin sistemin Azərbaycanda tətbiq edilməsinin nə dərəcədə mümkün olmasını aydınlaşdıraq. Buna görə daha fəal işləməyə hazırıq.

# Milli idman oyunlarının inkişaf etdirilməsi istiqamətində Azərbaycan-Türkiyə əməkdaşlığı mühüm önəm kəsb edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.



AZƏRTAC xəbər verir ki, Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından və öz adından dövlətimizin başçısını ad günü münasibətilə təbrik etdi, ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.

Təbrikə və göstərilən diqqətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefonla danışdığını məmnunluqla qeyd etdi.

Söhbət zamanı Çövkən Milli Atüstü Oyunu üzrə Prezident Kubokunun final mərhələsinin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, milli idman oyunlarının inkişaf etdirilməsi istiqamətində ölkələrimizin əməkdaşlığının önəmi vurğulandı.

# Hərbi qulluqçulara yeni xidməti mənzillər verilib

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən, hərbi qulluqçular üçün inşa edilən növbəti yaşayış binasının açılışı olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, açılış mərasimində hərbi qulluqçular, eləcə də onların ailə üzvləri ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbir iştirakçılarını təbrik edib. Müdafiə naziri görülən kompleks tədbirlərin dövlət başçısının Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu xüsusi qeyd edib.

Nazir bildirib ki, yeni xidməti mənzillərin istifadəyə verilməsi hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsidir. Bu, ümumilikdə Silahlı Qüvvələrdə şəxsi heyətin mənzil təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərin davamıdır. Silahlı Qüvvələrin Ali Baş Komandanının qayğısı nəticəsində son illərdə mütəmadi olaraq hərbi qulluqçuların daimi və xidməti mənzillərlə təmin olunduğunu qeyd edən nazir bu işlərin növbəti ildə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Mənzillə təmin olunan hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi yaradılan şəraitlə tanış olub və ailələrin qayğıları ilə maraqlanıb.

# Samur çayı üzərindəki 325 metrlik yeni avtomobil körpüsü istifadəyə verilib

Dekabrın 24-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası sərhədindən keçən Samur çayının üzərində tikilən yeni avtomobil körpüsü istifadəyə verilib.



Körpünün açılış mərasimində Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Quba, Qusar və Xaçmaz rayonlarının icra hakimiyyətlərinin rəhbərləri, Rusiya tərəfdən isə bu ölkənin İqtisadi İnkişaf naziri Maksim Oreşkin, Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyev, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və başqaları iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə körpünün açılışını bildirən rəmzi qırmızı lent kəsilib, hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Açılış mərasimində Azərbaycan və Rusiya arasındakı uzunmüddətli dostluq və əməkdaşlıq münasibətlərindən danışılıb, həyata keçirilən infrastruktur layihələrinin bu əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm rolu qeyd edilib.

Baş Nazirin müavini Şahin Mustafayev Azərbaycan ilə Rusiya sərhədində Samur çayı üzərində yerləşən avtomobil körpüsünün açılışını ölkələrimiz arasında olan dostluq və qonşuluq münasibətlərinin rəmzi adlandırıb. Bildirilib ki, bu körpü təkcə Samur çayının iki sahilini birləşdirmir, həm də xalqlarımızı birləşdirir.

Azərbaycan ilə Rusiyanı strateji əlaqələrin birləşdirdiyini vurğulayan Baş Nazirin müavini qeyd edib ki, yeni körpü beynəlxalq layihələrin həyata keçirilməsi üçün daha geniş imkanlar yaradır.

Şahin Mustafayev bildirib ki, bu ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya səfər edib və iki ölkə başçısının görüşləri baş tutub. Bu görüşlərdə ölkələrimiz arasında iqtisadi və siyasi inkişaf dinamikası yüksək dəyərləndirilib. İkitərəfli əməkdaşlığın bir sıra sahələri müzakirə edilib.

Baş Nazirin müavini əlavə edib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın da ölkələrimiz arasında münasibətlərin inkişafında böyük xidmətləri var. Mehriban xanımın bu yaxınlarda Rusiyaya uğurlu rəsmi səfəri Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini bir daha nümayiş etdirdi.

Yeni körpünün sərhədyanı rayonlarda yaşayan insanların əlaqələrinin daha da sıxlaşmasına imkan verəcəyini söyləyən Ş.Mustafayev diqqətə çatdırıb ki, bu körpü ticarət əməliyyatlarının genişlənməsinə də səbəb olacaq. İki ölkə arasında sabit ticarət əməliyyatlarının artımı qeydə alınıb. Gömrük sadələşdirilməsi və "Yaşıl dəhliz" sisteminin işə salınması ticarət dövriyyəsini daha da genişləndirəcək.

Baş Nazirin müavini vurğulayıb ki, yeni körpü "Şimal-Cənub nəqliyyat dəhlizi"nin vacib komponentidir. Onun sözlərinə görə, bu ilin 10 ayında "Şimal-Cənub nəqliyyat dəhlizi" üzrə yük daşınması 60 faiz, Şimal-Qərb marşrutu üzrə isə 53 faiz artıb. Eyni zamanda körpünün açılışı turizmin inkişafına da təkan verəcək, insanların gediş-gəlişini asanlaşdıracaq.

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin çıxışında bildirib ki, Samur çayı üzərində yeni avtomobil körpüsü Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birgə təşəbbüsü nəticəsində tikilərək istifadəyə verilib.

Rusiyalı nazir qeyd edib ki, uzun illər aparılan müzakirələr sonda müsbət nəticələndi: "Ötən ilin sentyabr ayında Prezident İlham Əliyevin Soçi şəhərinə səfəri zamanı yekun razılaşmalar əldə edilib və bütün məsələlər yoluna qoyulub. Əvvəllər infrastrukturun müasir tələblərə cavab verməməsi səbəbindən burada növbələr olurdu. Nəhayət, burada möhtəşəm yeni körpü istifadəyə verildi. Mən bu körpünün tikintisində əməyi keçənlərə təşəkkürümü bildirirəm. Doğurdan da çox keyfiyyətli iş görülüb. Bu körpünün açılışı hər iki ölkə üçün tarixi əhəmiyyətli hadisədir".

Maksim Oreşkin bildirib ki, Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi bu il 25 faiz artıb. Bu rəqəm xarici ticarət əlaqələri sırasında ən yüksək göstəricilərdəndir. "Digər ölkələrlə buna yaxın göstəricilərimiz yoxdur. Bu da Azərbaycanla qarşılıqlı münasibətlərimizin addım-addım inkişaf etdiyini göstərir. Ölkələrimizin insanları, şirkətləri arasında əlaqələr güclənir. Azərbaycanla Rusiya arasında qarşılıqlı turist axını da artmaqdadır. Buna görə də müvafiq infrastruktur da paralel olaraq inkişaf etdirilməlidir. Bu körpü ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Bu isə, öz növbəsində yeni iş yerlərinin açılmasına təkan verəcək. Körpü həm də böyük sosial əhəmiyyətə malikdir. Layihənin icrası növbəti perspektiv planlara yol açır. Yeni infrastruktur layihələrinin həyata keçirilməsi ölkələrimizi daha da yaxınlaşdıracaq", - deyə M.Oreşkin çıxışında söyləyib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışında körpünün açılışını əlamətdar hadisə kimi dəyərləndirərək, ölkələrimiz arasında qarşılıqlı dostluq münasibətlərinin mövcudluğunu qeyd edib. "Bu gün hamı bayram əhvali-ruhiyyəsindədir. Sevincli günlərimizdən biridir. Bu gün, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum günüdür. İlham Əliyevin və Vladimir Putinin səyi nəticəsində ərsəyə gələn bu körpünü quraşdıranlar belə bir əlamətdar gündə Prezidentimizə əsl hədiyyə etdilər. Mən buradan tez-tez keçirdim və çətinlikləri görürdüm. Uzun illər arzulamışıq ki, burada yeni körpü qurulsun və insanların rahatlığı təmin edilsin. Nəhayət həmin gün yetişdi. Mən bu körpüdən istifadə edəcək bütün insanların adından körpünü layihələndirənlərə, tikinti işçilərinə, mühəndislərə və burada əməyi keçən hər kəsə təşəkkür edirəm. Bu körpü doğrudan da Azərbaycan və Rusiya dostluğunun rəmzinə çevriləcək", - deyə Polad Bülbüloğlu qeyd edib.

Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyev də çıxışında xalqlarımız arasında münasibətlərin inkişafından, yeni istifadəyə verilən körpünün sərhədyanı rayonlarda yaşayan sakinlərin rifah halının yaxşılaşması üçün böyük əhəmiyyətə malik olmasından danışıb.

"Azərbaycan və Rusiya prezidentləri iki ölkə xalqlarının mənafeyi naminə iqtisadi əməkdaşlığı daha da inkişaf etdirmək üçün səylər göstərirlər. Biz bilirik ki, etimad sıx əməkdaşlığa gətirib çıxarır, qarşılıqlı əməkdaşlıq nəticəsində isə dövlətlərin, xalqların rifahı yüksəlir. Dağıstanlılar azərbaycanlılara xüsusi rəğbət bəsləyir, aramızda bir çox bağlılıq var, müştərək tarix var, qarşılıqlı hörmət və ehtiram var. Qonşun firavan dolanırsa, sən də bayram edə bilərsən", - deyə Vladimir Vasilyev söyləyib.

V.Vasilyev bu il Mahaçqala ilə Bakı arasında işə salınacaq sərnişin qatarının da ikitərəfli əlaqələrə mühüm töhfə olacağını vurğulayıb.

Mərasimdə bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində ölkədə bütün sahələrdə, o cümlədən nəqliyyat sektorunda davamlı inkişaf müşahidə olunur. Azərbaycan bir sıra beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində fəal iştirak edir. Rusiya tərəfi ilə birgə Samur çayı üzərində körpünün qurulması da Azərbaycanın reallaşdırdığı infrastruktur layihələrindən biridir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2013-cü ildə Azərbaycana rəsmi səfəri zamanı digər sənədlərlə yanaşı, Samur çayı üzərində yeni körpünün tikintisi üzrə hökumətlərarası saziş imzalanıb. İnşaat işlərinin xərclərinin 50 faizi Azərbaycan, 50 faizi isə Rusiya hökuməti tərəfindən ödənilib. Müasir standartlara cavab verən yeni körpü 1957-ci ildə inşa olunmuş köhnə tikilini əvəzləyir. Körpünün uzunluğu 325,3 metr, eni 17,3 metrdir. Körpü üç zolaqdan ibarətdir.

Samur çayı üzərindən körpünün açılması nəqliyyat vasitələrinin sərhəd keçidlərindən tez buraxılmasını təmin edəcək ki, bu da iki ölkə arasında daşımaların həcminin artmasına xidmət göstərəcək. Bununla da sahibkarlarımızın Rusiyaya yük daşınmasına sərf etdikləri vaxt kifayət qədər azalacaq. Bu isə həm xərclərin azalmasına, həm də ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Bundan başqa, çayın hər iki tərəfində qohumluq əlaqələri olan insanlar yaşadığından körpü həm də böyük sosial əhəmiyyətə malikdir.

Xatırladaq ki, körpünün tikintisinə 2017-ci il oktyabrın 18-də başlanılıb və layihəyə uyğun olaraq iki il ərzində inşası başa çatdırılaraq istifadəyə verilib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizin və onun bütün vətəndaşlarının rifahı naminə məsul vəzifənizdə uğurlar arzu edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycanda qazanılmış bütün uğurlar və yüksək nəticələr Sizin səmimi dostunuz kimi məni sevindirir. Əminəm ki, Siz öz müdrik qərarlarınız və zəngin siyasi təcrübəniz sayəsində bundan sonra da ölkənin inkişafını təmin edəcəksiniz. Bu, etibarlı sülh və iqtisadi tərəqqi yolunu təmin etməyinizə imkan yaradacaq.

Mən fəxr edirəm ki, ölkələrimiz arasında coğrafi məsafənin böyük olmasına baxmayaraq, Serbiyanın Prezidenti olduğum dövrdə Azərbaycanla strateji tərəfdaşlıq əsasında səmimi dostluq münasibətləri inkişaf edir və buna Sizin şəxsi töhfəniz ölçüyəgəlməzdir. Bu səbəbdən Serbiyada Sizə dərin hörmət bəsləyirlər. Fürsətdən istifadə edib hərtərəfli əməkdaşlığımıza kömək məqsədilə Sizinlə bundan sonra da birgə işləmək əzmində olduğumuzu təsdiq edirəm. Əminəm ki, Serbiyanın və serb xalqının böyük dostu kimi Serbiyaya səfər etsəydiniz, iki ölkənin yaxın münasibətlərində xüsusi iz qoymuş olardınız. Buna görə bizi bu şərəfə layiq görməyə dəvət edirəm.

Hörmətli Prezident, biz qərarlar qəbul edilməsində müstəqillik prinsipinə şərik olduğumuza, azadlıqsevərlik ənənələrini yüksək qiymətləndirdiyimizə görə, icazə verin, Kosovonun birtərəfli qaydada elan etdiyi müstəqilliyinin tanınmaması barədə qətiyyətli mövqeyinizə, həmçinin beynəlxalq təşkilatlarda Serbiyanı dəstəklədiyinizə görə Sizə xüsusi təşəkkürümü bildirim. Serbiya da suverenliyə və ərazi bütövlüyünə hörmət bəslənməsinə qəti şəkildə sadiqdir və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına yönəlmiş səyləri alqışlayır.

Cənab Prezident, səmimi təbriklərimi, həmçinin Sizə böyük hörmətimi qəbul edin.

*Hörmətlə,*

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ad gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu yaxınlarda qonaqpərvər Bakıya səfərim zamanı mən ölkənizin inkişafı, xalqınızın həyat səviyyəsinin yüksəlməsi və Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə şəxsən Sizin nə qədər çox səy göstərdiyinizin şahidi oldum.

Ukrayna və Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın gələcək inkişafına qarşılıqlı maraqların, eləcə də səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu təsdiq etmiş danışıqlarımızın dostluq ab-havasını məmnunluqla xatırlayıram.

İnanıram ki, danışıqlar zamanı əldə etdiyimiz nəticələrin uğurla həyata keçirilməsi münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə təsir edəcək.

Bu xoş fürsətdən istifadə edərək, Sizin üçün münasib vaxtda, Zati-alinizi Ukraynaya rəsmi səfərə dəvət etmək istərdim.

Əminəm ki, Sizin Ukraynaya gələcək səfəriniz Ukrayna-Azərbaycan tərəfdaşlığında əldə etdiyimiz yeni nailiyyətlərin möhkəmlənməsinə imkan yaradacaq.

Zati-aliləri, Sizə tükənməz enerji, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Vladimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbrikləri qəbul edin.

Azərbaycan Respublikasının davamlı sosial-iqtisadi inkişafı, həyata keçirilən kompleks islahatlar və ölkənin dünya arenasında müsbət imicinin möhkəmlənməsi Sizin adınızla sıx bağlıdır.

Dövlətlərimiz arasında etimada əsaslanan münasibətlərin çox yüksək səviyyəsinə və strateji xarakterinə böyük dəyər verirəm. Əminəm ki, Minsk ilə Bakının möhkəm dostluğa və qarşılıqlı anlaşmaya əsaslanan çoxşaxəli tərəfdaşlığı bundan sonra da uğurla inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, həmçinin qardaş Azərbaycan xalqının tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi təbrik etməkdən böyük şərəf duyuram.

Sizin rəhbərlik etdiyiniz Azərbaycan Gürcüstanın mehriban dostu və tərəfdaşıdır. Gürcüstanla Azərbaycan arasındakı münasibətlər həqiqətən də nümunəvidir. Mən inanıram ki, biz regionda sabitliyin möhkəmləndirilməsi və gələcəkdə daha da gücləndirilməsi istiqamətində bundan sonra da bir çox faydalı addımlar atacağıq.

Sizə möhkəm cansağlığı, ölkənizə rifah, sülh və müvəffəqiyyətlər arzu edirəm.

*Səmimiyyətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı bildirməkdən çox məmnunam.

Sizin hərtərəfli düşünülmüş müdrik daxili və xarici siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq arenada rolu və nüfuzu möhkəmlənir, iqtisadiyyatın bütün prioritet sahələrində əsas göstəricilər, o cümlədən əhalinin həyat səviyyəsi artır.

Sizin Özbəkistana və özbək xalqına xüsusi münasibətiniz, həmçinin bizim sıx qardaşlıq əlaqələrimiz sayəsində bu gün ölkələrimiz arasında qarşılıqlı faydalı, çoxtərəfli və uzunmüddətli əməkdaşlıq sabit inkişaf edir.

Böyük məmnuniyyətlə qeyd etmək istərdim ki, cari ildə bizim aramızda baş tutmuş bir sıra açıq və səmərəli görüşlər, o cümlədən oktyabr ayında Bakıda çox məhsuldar danışıqlarımız Özbəkistan ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük təkan verib.

Əminəm ki, bizim yüksək səviyyədə əlaqələrimiz nəticəsində strateji tərəfdaşlığımız yaxın gələcəkdə qarşılıqlı etimad və hörmət ruhunda yeni məzmun və məna ilə zənginləşəcək, dövlətlərimizin potensialına və imkanlarına uyğun olaraq daha yüksək səviyyəyə çatacaqdır.

Əziz İlham Heydər oğlu, icazə verin, Sizi həyatınızdakı bu əlamətdar hadisə münasibətilə bir daha təbrik edim, Sizə möhkəm cansağlığı, ailə xoşbəxtliyi, dost Azərbaycan xalqına sülh və firavanlıq diləyim.

*Dərin hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizə olan cansağlığı və xoşbəxtlik arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***II ABDULLAH,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ürəkdən gələn ən səmimi təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, uzun ömür, gənclik ruhu, bütün məqsəd və məramlarınızın həyata keçməsini diləyirəm.

Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə həm regional, həm də beynəlxalq səviyyələrdə sabitlik amilidir. Sizin yürütdüyünüz ölçülüb-biçilmiş daxili və xarici siyasət sayəsində ölkəniz ictimai-siyasi və sosial-iqtisadi inkişafın bütün sahələrində sanballı nailiyyətlər əldə edir, xalqın rifahının yüksəldilməsinə, habelə Azərbaycanın beynəlxalq arenada nüfuzunun möhkəmlənməsinə yönəldilmiş səmərəli dəyişiklikləri və islahatları dinamik surətdə həyata keçirir.

Xoş fürsətdən istifadə edərək, dost dövlətlərimiz arasında əlaqələrin möhkəmlənməsinə əhəmiyyətli töhfənizə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu kontekstdə müxtəlif sahələrdə xalqlarımızın uzunmüddətli maraqlarına tam şəkildə cavab verən Moldova-Azərbaycan əməkdaşlığının bundan sonra da inkişaf etdirilməsində maraqlı olduğumu təsdiqləyirəm.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizi ad gününüz münasibətilə bir daha təbrik edim, sülh, əmin-amanlıq, firavanlıq və Azərbaycanın rifahı naminə yeni böyük uğurlar diləyim.

Sizin doğmalarınıza və yaxınlarınıza ən səmimi təbriklərimi və ən gözəl arzularımı çatdırıram.

*Hörmətlə,*

***İqor DODON,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi doğum gününüz münasibətilə təbrik edir və Sizə cansağlığı, uğurlar diləyir və ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, məmnuniyyətlə qeyd etmək istərdim ki, Gürcüstan-Azərbaycan arasında strateji münasibətlər uğurla inkişaf edir və bu nümunəvi tərəfdaşlığın möhkəm təməlində gürcü və Azərbaycan xalqlarının çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı etimada söykənən əlaqələri dayanır.

Ölkələrimiz arasında uğurlu əməkdaşlıq regionda sabitlik və əmin-amanlığın əsasıdır. Bu əməkdaşlığın parlaq təzahürü ölkələrimiz tərəfindən on illərdir uğurla icra edilən genişmiqyaslı birgə layihələr və təşəbbüslərdir. Əminəm ki, xüsusi münasibətlərimizi birgə səylərimizlə gələcəkdə daha da inkişaf etdirib möhkəmləndirəcəyik.

Bir daha Sizi səmimi-qəlbdən təbrik edir, şəxsi həyatınızda və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Giorgi QAXARİYA,***
***Gürcüstanın Baş Naziri***

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Siz Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, xalqın rifahının və ölkənin nüfuzunun artmasına yönəlmiş ciddi daxili və xarici siyasət həyata keçirirsiniz.

Qazaxıstan əsrlər boyu davam edən sarsılmaz dostluğa və mehriban qonşuluğa qətiyyətlə sadiq qalaraq, ortaq tarix, mədəniyyət, dil və din oxşarlığı ilə bağlı olduğumuz Azərbaycanla bütün səviyyələrdə strateji tərəfdaşlığın gələcəkdə daha da dərinləşməsində maraqlıdır.

Əziz İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, tükənməz enerji və ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti-Elbası***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Ad gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin çoxillik yaradıcı fəaliyyətiniz Azərbaycan Respublikasının inkişafına və çiçəklənməsinə, onun əhalisinin firavanlığına yönəlmiş konkret işlərdə parlaq ifadəsini tapır. Əminəm ki, Sizin yüksək peşəkar keyfiyyətləriniz və işinizə sədaqət bundan sonra da nəzərdə tutulan planları uğurla həyata keçirməyə imkan verəcək.

Doğma respublikanız naminə bütün işlərinizdə və təşəbbüslərinizdə Sizə yeni-yeni uğurlar, doğmalarınıza və yaxınlarınıza xoşbəxtlik, cansağlığı, firavanlıq arzulayır, ən xoş diləklərimi bildirirəm.

*Hörmətlə,*

***Maqomed KALİMATOV,***
***Rusiya Federasiyası İnquş Respublikasının rəhbəri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Ad gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji, bütün planlarınızın reallaşmasını, məsul fəaliyyətinizdə uğurlar, xoşbəxtlik və firavanlıq arzu edirəm.

Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında qarşılıqlı dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın uğurlu inkişafına şəxsi töhfənizə, bunun üçün göstərdiyiniz daimi diqqət və dəstəyə görə Sizə səmimi minnətdarlığımı bildirirəm. Bu diqqət və dəstək sayəsində bizim regionda çox mühüm birgə layihələr həyata keçirilir.

Ümidvaram ki, bizim aramızda yaranmış konstruktiv dialoq bundan sonra da Həştərxan vilayəti ilə Azərbaycanın əməkdaşlığının dərinləşməsinə kömək edəcək.

*Hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, ad gününüz münasibətilə Sizi ürəkdən təbrik edim.

Sizin uzaqgörən strateq və parlaq siyasətçi kimi hərtərəfli istedadınız, gərgin əməyiniz və fədakarlığınız Azərbaycanın güclü müstəqil dövlət quruculuğunda nail olduğu böyük uğurların əsasını təşkil edir.

Sizin yüksək peşəkarlığınızın, görkəmli lider keyfiyyətlərinizin və səylərinizin səmərəli uzlaşması sayəsində respublika sosial-iqtisadi sahənin inkişafında keyfiyyətcə yeni səviyyəyə çatıb, beynəlxalq arenada öz nüfuzunun şəksiz qəbul edilməsinə nail olub.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür və tükənməz enerji arzu edirəm. Qoy Sizin müdrikliyiniz və hərtərəfli dərin bilikləriniz qardaş Azərbaycanın daha da firavanlaşmasının və yeni uğurlarının əsası olsun.

*Hörmətlə,*

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı,***
***Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri***

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Beynəlxalq arenada Sizin nüfuzunuz çox böyükdür və öz miqyasına görə o, vətəninizdə qazandığınız nüfuzdan heç də geri qalmır. Siz dərin zəkalı və uzaqgörən siyasi xadim, dünyada suveren Azərbaycanın müsbət obrazının formalaşması və hörmət qazanması, dövlətin sosial-iqtisadi, mədəni və humanitar inkişafı, azərbaycanlıların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi üçün çox işlər görmüş nüfuzlu dövlət xadimisiniz. Dahi atanızın, xalqınızın Ümummilli Lideri Heydər Əliyevin layiqli varisi və onun müdrik siyasətinin davamçısı kimi Azərbaycan bayrağını qürurla və şərəflə daşıyır, vətənin firavanlığı naminə öz müqəddəs borcunuzu dönmədən yerinə yetirir, yeni böyük sanballı uğurlar qazanırsınız.

Siz ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq, mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlığın təməlinin möhkəmləndirilməsi üçün ölçüyəgəlməz dərəcədə çox iş görürsünüz, buna görə hər cür təşəkkürə və alqışa layiqsiniz.

Şəxsən bizim aramızda yaranmış etimadı və qarşılıqlı anlaşmanı yüksək qiymətləndirirəm, bu ünsiyyətin gələcəkdə də davam edəcəyinə ümidvaram.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən cansağlığı, səadət, firavanlıq, ali dövləti fəaliyyətinizdə və əlbəttə ki, şəxsi həyatınızda Sizə, səmimi, möhkəm ailənizə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyası Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsinin sədri***

❖ ❖ ❖

Möhtərəm Prezident!

İcazə verin, Moldova Respublikası Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsi adından və şəxsən öz adımdan Sizə hörmət və ehtiramımı bildirim.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik. Sizə möhkəm cansağlığı, tükənməz həyat enerjisi, ruh yüksəkliyi, nikbinlik və Azərbaycan Respublikasının tərəqqisi, rifahı naminə məsul işinizdə uğurlar arzulayırıq.

Siz ən ambisiyalı məqsədlərə nail olmağa qadir çox bacarıqlı və uğurlu rəhbər keyfiyyətlərinə maliksiniz. Siz zirvələrə çatmağa, ictimaiyyət arasında geniş hörmət və nüfuz qazanmağa nail olmusunuz.

Sizin böyük məqsədə yönəlmiş təcrübəniz dəqiq və çoxşaxəli fəaliyyətinizdə uğurun rəhnidir. Arzum budur ki, daim xeyirxahlıq, səmimiyyət və qarşılıqlı anlaşma mühitində olasınız, məsləkdaşlarınızın dəstəyi həyatda üzləşdiyiniz çətinlikləri dəf etməkdə Sizə qüvvət versin.

Qaqauz Yeri Muxtar Ərazi Qurumu ilə Azərbaycan Respublikası arasında çoxsaylı birgə layihələrdə əksini tapan əməkdaşlığın inkişafı Qaqauz Yeri Muxtar Ərazi Qurumunun rəhbərliyi üçün vacib və perspektivlidir.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edib Sizə yüksək ehtiramımızı bildiririk.

*Dərin hörmət və ən xoş arzularla,*

***İrina VLAX,***
***Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazisi Qurumunun başçısı***

❖ ❖ ❖

Zati-aliləri!

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirim və doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırım.

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin inkişafı baxımından Azərbaycan Respublikasının Prezidenti kimi Sizin fəaliyyətinizi, ölkənin iqtisadi və sosial inkişafı istiqamətində göstərdiyiniz xidmətləri çox yüksək dəyərləndirir.

Bu danılmaz və mühüm nailiyyətlər əyani şəkildə göstərir ki, Azərbaycan Respublikası bu gün ölkə həyatının bütün sahələrində irəliləyir, beynəlxalq arenada inteqrasiya proseslərinin dərinləşməsində, region dövlətlərinin və xalqlarının dostluq və əməkdaşlığının inkişafında onun rolu daha da güclənir və böyük önəm qazanır.

Bununla əlaqədar olaraq, Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin "TRACECA" fəaliyyətinin 20-ci ildönümünə və "TRACECA" Hökumətlətrarası Komissiyasının 14-cü iclasına həsr edilmiş yubiley konfransının iştirakçılarının ünvanına göndərdiyiniz təbrik məktubuna görə Sizə xüsusi təşəkkürümü bildirmək istərdim.

Fürsətdən istifadə edərək, həm milli, həm də beynəlxalq səviyyədə "TRACECA"nın fəaliyyətinə daimi dəstəyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

İcazə verin, belə bir fikirlə sözsüz razılaşdığımı bildirim ki, nəqliyyat sferasında əməkdaşlıq amilinə böyük diqqət yetirən Azərbaycan Respublikası bizim "TRACECA" proqramı üzrə fəaliyyətimizi qarşıdan gələn dövr üçün "TRACECA" ölkələrinin nəqliyyat sektorunun inkişafı baxımından yeni mərhələnin başlanğıcı kimi dəyərləndirir.

Zati-aliləri, icazə verin, yuxarıda qeyd edilənlərlə əlaqədar Sizə belə bir məlumat çatdırım ki, "TRACECA" Hökumətlərarası Komissiyasının 2019-cu il 6 dekabr tarixli qərarına uyğun olaraq, komissiyanın Bakıda keçirilən 14-cü iclasının gedişində Azərbaycan "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin baş katibi seçilib və 2019-cu il dekabrın 20-dən etibarən Daimi Katibliyin mənzil qərargahında öz vəzifələrinin icrasına başlayıb.

Çox hörmətli İlham Heydər oğlu, ən səmimi salamlarımı, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləklərimi qəbul etməyinizi Sizdən xahiş edirəm.

*Hörmətlə,*

***Aset ASAVBAYEV,***
***"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimizi yüksək diqqətinizə çatdırırıq.

Sizin rəhbərliyinizlə aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə, o cümlədən, türk dünyasında böyük nüfuz qazanmış bir dövlətə çevrilmişdir.

Bu nailiyyətlər Azərbaycanın türk dünyasındakı yüksək mövqeyini parlaq şəkildə ifadə edir. Zati-alinizin təşəbbüsü ilə türkdilli xalqların mədəni irsinin qorunması və təbliği kimi mühüm missiya beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna həvalə olunmuşdur və bu ilin oktyabr ayında Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci Zirvə Görüşü çərçivəsində təşkilatın yeni binasının açılışı Sizin dəstəyinizi bir daha nümayiş etdirdi. Bu dəstəyiniz türk dünyasının maddi və mənəvi dəyərlərinin mühafizə edilməsi, dünyada tanıdılması, eləcə də bu dəyərlərin gənc nəsillərə aşılanması istiqamətindəki fəaliyyəti daha böyük layihə və proqramlar vasitəsilə həyata keçirməyimiz üçün böyük stimul yaradır.

Sizə möhkəm cansağlığı, ailə səadəti və ali dövləti vəzifənizdə yeni-yeni uğurlar arzulayırıq.

Bu xoş fürsətdən istifadə edərək, Sizi qarşıdan gələn 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirik.

*Dərin hörmətlə,*

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin çoxşaxəli fəaliyyətiniz, Azərbaycanın tərəqqisi naminə yorulmadan çalışmağınız ən yüksək hörmətə layiqdir.

İcazə verin, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan Respublikasının firavanlaşmasını arzulayım.

Sizə və xanımınız Mehriban Arif qızına əmin-amanlıq və xoşbəxtlik arzuları ilə,

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, tükənməz enerji, xoşbəxtlik, rifah və həyatın ən gözəl nemətlərini diləyirik.

Qoy Tanrı Sizi və ailənizi daim qorusun. Gözəl ölkənizin, xalqınızın, bəşəriyyətin rifahı və əmin-amanlığı naminə bütün nəcib təşəbbüslərinizin həyata keçməsini arzu edirik.

*Dərin hörmətlə,*

***Vardis VARDİNOYANNİS,***
***Yunanıstanın "Motor Oil Hellas", "Vegas Oil and Gas" şirkətlərinin sədri və xanımı Marianna VARDİNOYANNİS***

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə "Qazprom" Publik Səhmdar Cəmiyyəti adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, səmərəli və uğurlu fəaliyyət, Azərbaycanın və bütün xalqınızın rifahı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Aleksey MİLLER,***
***"Qazprom" Publik Səhmdar Cəmiyyətinin idarə heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin Azərbaycanın rifahı naminə gündəlik fəaliyyətinizin bəhrələri ən yüksək qiymətə layiqdir. Respublika Sizin rəhbərliyinizlə uğurla inkişaf edir, onun vətəndaşları isə gələcəyə inamla baxırlar. Beynəlxalq arenada Azərbaycanın nüfuzunun artması Sizin adınızla bağlıdır.

Hər il işgüzar və mədəni dairələrin, peşəkar idmançıların və sadə turistlərin yüz minlərlə nümayəndəsi Sizin ölkənizlə tanış olur və onun gözəl infrastrukturuna, qonaqpərvərlik ənənələrinə və ölkə tarixinə qayğıkeş münasibətə valeh olur.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***"Safmar" qrupu Səhmdar Cəmiyyətinin prezidenti, Direktorlar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibəti ilə səmimi-qəlbdən təbrik edir, Sizə və ailənizə cansağlığı və rifah diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Sizə və Azərbaycan xalqına davamlı nailiyyətlər və firavanlıq arzulayıram.

bp şirkəti olaraq biz Azərbaycana böyük önəm veririk və burada olmağımızdan qürur duyuruq. Ötən 27 il ərzində regionda həyata keçirdiyimiz dünyamiqyaslı layihələrin uğuru Sizin rəhbərliyiniz və dəstəyiniz, eyni zamanda, Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq sayəsində mümkün olmuşdur. Ümidvaram ki, bu səmərəli tərəfdaşlığımız bundan sonra da davam edəcəkdir.

Sizə doğum gününüz və qarşıdan gələn bayramlar münasibətilə bir daha ən səmimi təbriklərimi çatdırır və Azərbaycan Respublikasının inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

***Qəri COUNZ,***
***bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ad gününüz münasibətilə Sizi Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının inamlı inkişafını, iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsini dəstəkləyir, Uca Allahdan Sizə bu yolda səbir və güc verməsini arzulayırıq.

Azərbaycanın hərtərəfli inkişafı istiqamətində uğurlu fəaliyyətiniz, ordu quruculuğunun yüksək səviyyədə təşkili, təhsilə, idmana və digər önəmli sahələrə qayğınız, xalqın rifah səviyyəsinin yüksəldilməsinə verdiyiniz töhfələr danılmazdır.

Azərbaycan və Türkiyə arasında bu gün strateji tərəfdaşlıq xarakteri almış ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Siz xüsusi töhfə vermisiniz. Sizi əmin etmək istəyirik ki, Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq, bu siyasətin həyata keçirilməsinə daim səy göstərəcəyik.

Fürsətdən istifadə edərək, təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə, Sizə bir daha təşəkkür edirik.

Bəşəriyyətə və ölkəyə xidmət edərkən qədəm qoyduğunuz bu yaşınızı bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Cemal YANĞIN,***
***Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Böyük dövlət xadimi olaraq Siz öz ad gününüzü yaradıcı və mənəvi gücünüzün çiçəkləndiyi bir dövrdə qeyd edirsiniz. İnsanlar arasında sülhün və qarşılıqlı anlaşmanın inkişafına, cəmiyyətin humanitar və iqtisadi tərəqqisinə, səhiyyəyə və təhsilə töhfəniz səmimi heyranlıq və dərin ehtiram hissi doğurur.

Qüdrətli ölkənizin rifahı naminə nəcib niyyətlərinizin həyata keçirilməsi üçün Sizə ürəkdən möhkəm cansağlığı və tükənməz enerji arzulayıram.

Sizə və doğmalarınıza xoşbəxtlik, firavanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru***

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən xoş və səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının tanınmış lideri və vətənpərvəri olaraq Siz həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda böyük nüfuz və hörmət qazanmısınız. Siz uzun illərdir ki, Xəzər regionunda sabitliyin etibarlı qarantlarından biri kimi çıxış etməklə bütün enerjinizi, müdrikliyinizi və təcrübənizi ölkənin firavanlığının, onun vətəndaşlarının rahatlığının və əmin-amanlığının təmin edilməsinə yönəldirsiniz.

Fürsətdən istifadə edib "LUKoyl" şirkətinin Azərbaycandakı fəaliyyətini daim dəstəklədiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizi əmin etmək istərdim ki, "LUKoyl" şirkətinin azərbaycanlı tərəfdaşlarla əməkdaşlığının uğurla davam etməsi və ölkələrimizin mənafeyi naminə genişlənməsi üçün hər cür səy göstərəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, əmin-amanlıq, tükənməz enerji və məsul dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vahid ƏLƏKBƏROV,***
***"LUKoyl" neft şirkətinin prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Zati-aliləri, Rusiya Federasiyasında yaşayan Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir və doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikası beynəlxalq münasibətlərin nüfuzlu iştirakçısıdır və gələcəyə inamla baxır. Bu uğurda Sizin çox böyük xidmətiniz bizim hər birimizdə minnətdarlıq və qürur hissi doğurur. Beynəlxalq arenada Azərbaycanın maraqlarının qorunmasında Sizin sarsılmaz mövqeyiniz, daxili və xarici siyasətdə ölkə üçün taleyüklü qərarlar qəbul etməyiniz, bütün dünyada çoxmillətli Azərbaycan diasporunun ehtiyaclarına daimi diqqətiniz Sizə haqlı olaraq qətiyyətli və ardıcıl dövlət siyasətçisi kimi nüfuz və hörmət qazandırıb.

Siz Rusiya Federasiyasının əsl dostu kimi müxtəlif sahələrdə qarşılıqlı faydalı Azərbaycan-Rusiya əməkdaşlığının möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz.

Əziz İlham Heydər oğlu, bu xoş gündə Sizə möhkəm cansağlığı və gözəl Vətənimiz Azərbaycanın firavanlaşması naminə yeni böyük uğurlar diləyirik.

*Dərin hörmət və ehtiramla,*

***Fazil QURBANOV,***
***Rusiyanın Azərbaycan diasporunun rəhbəri, akademik***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizin üçün bu əlamətdar gündə Sizə - təcrübəli dövlət xadiminə, Azərbaycan dövlətinin müstəsna istedadlı, praqmatik siyasi xadiminə və layiqli liderinə bir daha səmimi hörmət və minnətdarlığımı bildirmək istərdim.

Sizin müdrik, çoxşaxəli və tarazlaşdırılmış xarici siyasətiniz sayəsində Azərbaycan Respublikası güclü geosiyasi mərkəzə, həqiqi regional liderə çevrilib, həm postsovet məkanında, həm də dünya birliyində xüsusi yerini tutub.

Biz, əslən Azərbaycandan olanlar İsraildə bu fakta görə çox fəxr edirik ki, Azərbaycan sivilizasiyalararası, konfessiyalararası və mədəniyyətlərarası dialoqun əsl nümunəsi olub və bu gün də belədir. Məhz Sizin praqmatik və müdrik dövlətçilik fəaliyyətiniz sayəsində tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzinə çevrilib. Multikulturalizmin Azərbaycan modeli millətçiliyin, şovinizmin, faşizmin və terrorizmin alternatividir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, İsrail Dövləti və İsrail xalqı şəxsən Sizin Azərbaycanda yaşayan bütün icmalara, habelə yəhudi icmasına dünyada analoqu olmayan xüsusi qayğıkeş münasibətinizi yüksək qiymətləndirir. Siz dünyəvi dövlətə, multikulturalizmə və tolerantlığa sadiqliyinizə, Azərbaycanda yaşayan bütün konfessiyaların və xalqların nümayəndələrinə hörmətlə yanaşdığınıza görə həm İsrail cəmiyyətinin, həm də dünya yəhudi icmalarının əksəriyyətinin hörmətini qazanmısınız.

Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ən xoş arzularımı qəbul edin. Sizə və gözəl ailənizə səmimi-qəlbdən tükənməz enerji, möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzu edirəm.

*Dərin hörmətlə,*

***Arye QUT,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin direktoru, "İsraildə Azərbaycan evi" Qeyri-Hökumət Təşkilatının icraçı direktoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, Rusiya Müsəlmanları Ruhani Məclisi adından və şəxsən öz adımdan Sizi həyatınızda əlamətdar hadisə olan ad gününüz münasibətilə ürəkdən təbrik edim.

Siz Azərbaycan Respublikasının rəhbəri kimi, islam dininin sülh, xeyirxahlıq və ədalət prinsiplərini əsas götürərək Azərbaycan xalqının rifahı naminə yorulmadan çalışırsınız. Siz daimi və yorulmaz işiniz sayəsində özünüzü Azərbaycanın taleyi üçün yüksək məsuliyyət hiss edən müdrik, əzmkar, insanların qayğısına qalan dövlət xadimi kimi göstərmisiniz.

Müasir Azərbaycan sosial-iqtisadi uğur və millətlərarası sülh nümunəsi olmaqla yanaşı, Sizin səyləriniz sayəsində öz qədim köklərinə qayıdır və tarixi möhtəşəmliyini dirçəldir.

Vicdanlı əməyinizə, mənəvi səxavətinizə və həssas qəlbinizə görə Sizə minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Həyatınızın hər günü sülh, harmoniya və sevgi ilə dolu olsun.

Sizə qüvvət, gümrahlıq, enerji, müdriklik və çətin işinizdə səbir diləyirəm. Qadir Allah Sizin bütün əməli-saleh işlərinizi, səmimi dualarınızı qəbul etsin, hər iki dünyada onların əvəzini versin.

*Hörmətlə və xoş dualarla,*

***Müfti Albir KRQANOV,***
***Rusiya Müsəlmanları Ruhani Məclisinin rəhbəri, Rusiya Federasiyası İctimai Palatasının üzvü***

# İdarəetmədə yeni meyarların tətbiqi sürətli müasirləşməni təmin edir

*Dünya reallıqları lider missiyasını üzərinə götürmüş şəxslərin xalq və dövlət qarşısındakı məsuliyyətini qabarıq şəkildə önə çıxararaq idarəçilikdə yeni meyarlar diktə edir.*

Dövlətə rəhbərlik edən şəxsin siyasi peşəkarlığı, idarəetmə təcrübəsi, uzaqgörənliyi, qlobal müstəvidəki inkişaf proseslərini ölkəsinin milli tərəqqisinə istiqamətləndirmək əzmi, xalqına və vətəninə bağlılığı bu meyarlar sırasında mühüm yer tutur.

Ümummilli Lider Heydər Əliyevin böyük müdrikliklə müəyyən etdiyi inkişaf strategiyasını son 16 ildə uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirsək, onun fəaliyyətində bu şərtlərin özünü necə dəqiqliklə doğrultduğunu əyani şəkildə görərik.

Bu şərtlərdən, ən mühümü, heç şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlik nümayişidir. Cənab İlham Əliyev siyasətini bu ənənələr çərçivəsində quraraq dövlətçilik konsepsiyasını Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu ideoloji kurs üzərində formalaşdırmış, xalqı dahi rəhbərin ölməz ideyaları ətrafında toparlaya bilmişdir.

İdarəetmə və liderlik bacarığı ilə Prezident cənab İlham Əliyevin Azərbaycan və dünya siyasətində bütün siyasi qütblərin hesablaşdığı qüdrətli liderə çevrildiyi danılmaz gerçəklikdir. Onun siyasi və dövlətçilik fəaliyyəti, daxili və xarici siyasət sahəsində atdığı addımlar məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Azərbaycan Prezidentinin istər ölkədə, istərsə də respublikamızın hüdudlarından kənarda baş verən hadisə və proseslərə münasibəti birmənalı və dəqiqdir. Cənab İlham Əliyev dövlət adamı olaraq nəzəriyyəçidən daha çox praktikdir və dərin məzmunlu nitqlərini reallıqda təsdiqini tapmış müddəalar üzərində qurur. Auditoriyanın xarakterindən asılı olmayaraq, insanlarla ünsiyyət zamanı müstəqil dövlətimizin qarşısında dayanan yeni planlar, perspektivlər, həlli vacib problemlər haqqında fikirlərini aydın şəkildə çatdırır. Dövlət rəhbərinin hər bir nitqi onun cəmiyyət həyatının bütün əhəmiyyətli sahələri üzrə yüksək bilik və məlumata malik olduğunu göstərir. Bütün məsələlərə ölçülüb-biçilmiş yanaşma tərzi Azərbaycan Prezidentinin çıxışlarının nəzəri-təcrübi bilik, yüksək səriştə və dünyagörüşü üzərində kökləndiyini təsdiqləyir. Bütün bu keyfiyyətləri həm də onun malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial və işgüzarlıq tamamlayır.

Azərbaycan Prezidenti xarakter etibarilə çox səmimidir. Bu keyfiyyət xüsusilə onun sıravi vətəndaşlarla təmaslarında daha qabarıq üzə çıxır. Cənab İlham Əliyev müdrik dövlət adamlarına xas olan qabiliyyətlə hər kəslə dil tapmağı, hər kəsin probleminə həssaslıqla yanaşmağı, Prezidentlə vətəndaş arasındakı psixoloji sədləri götürməyi bacarır. Dövlət başçısının son vaxtlar insanlarla birbaşa və planlaşdırılmayan təmaslara daha çox üstünlük verməsi, reallıqları onların öz dilindən eşitmək və insanlarla səmimi söhbətləşmək istəyi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin məsuliyyətini daha da artırır, onları səylə işləməyə, xalqa daha yaxın olmağa sövq edir.

Dövlətimizin rəhbəri nitqlərində hadisələrə, mövcud problem və nöqsanlara münasibət bildirməklə kifayətlənmir, həm də proseslərin gələcək dinamikasını, həlli yollarını göstərir. Həm də o qədər yüksək peşəkarlıqla ki, bunun üçün ən müxtəlif sahələr üzrə yaxşı mütəxəssis olmaq lazımdır. Nitqlərində yer alan ayrı-ayrı məqamlar göstərir ki, cəmiyyət həyatına aid xırda detal belə dövlət başçısının diqqətindən kənarda deyil. Cənab İlham Əliyev təkcə müxtəlif mənbələrdən aldığı məlumatlarla kifayətlənmir, eyni zamanda bu məlumatları fərdi müşahidələri ilə birgə nəzərdən keçirərək ümumi qənaətə gəlir.

Son illərin təhlili bir daha təqdiqləyir ki, cənab İlham Əliyev xalqın arzu və istəyini müxtəlif mənbələr, sosial şəbəkələr, eləcə də yeni yaradılmış Sosial Tədqiqatlar Mərkəzi vasitəsilə dərindən öyrənir, təxirəsalınmaz qərarlar qəbul edir və məmurlar qarşısında ciddi tələblər qoyur. *"Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı"* deyən ölkə başçısı idarəçilikdə, fəaliyyətdə və düşüncədə yeniləşməni və sivil dəyərlərin tətbiqini zəruri sayır.



2018-ci ilin 11 aprel seçkilərindən sonra ölkəmizdə qlobal miqyası ilə sistem xarakteri almış, uzaq hədəflərə hesablanmış islahatların sosial sifariş amilinə söykəndiyi, xalqın arzu və istəklərini tam ifadə etdiyi göz önündədir. İki ilə yaxın müddətdə ictimai həyatın bütün sahələrində aparılan kadr dəyişikliklərinin, şəffaflığa, bürokratik amillərin aradan qaldırılmasına xidmət edən struktur islahatlarının, tətbiq olunan innovativ idarəetmə texnologiyalarının başlıca mahiyyəti insanları önə, diqqət mərkəzinə çəkməkdir: idarəetmənin şəffaflaşdırılması, bir çoxlarına həlli müşkül görünən neqativ amillərin aradan qaldırılması üçün ciddi siyasi iradənin ortaya qoyulması, icra hakimiyyəti orqanlarında əsaslı kadr dəyişikliklərinin aparılması, yeniliklərlə ayaqlaşa bilməyən kadrların vəzifələrindən uzaqlaşdırılması sistemli islahatların mühüm tərkib hissəsidir.

Xatırladaq ki, dövlət başçısı hələ 2013-cü ildə Kürdəmir rayonuna səfəri zamanı sistemli islahatların aparılması zəruriliyini qeyd etmişdir: *"Biz həm iqtisadi sahədə, sosial məsələlərin həllində bundan sonra da islahatlar aparacağıq. İslahatlara böyük ehtiyac vardır. Çünki burada söhbət təkcə investisiyalardan getmir, investisiya qoyuluşu Azərbaycanda yüksək səviyyədə həll olunur, eyni zamanda, sistem xarakterli islahatlar aparılmalıdır".*

Ötən dövrdə idarəçiliyin asanlaşdırılması zəminində vətəndaş məmnunluğunun təmin edilməsi də strateji xətt olaraq diqqət mərkəzindədir. Dövlət başçısı 2018-ci ilin avqust ayında əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlərin göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır. Ümumilikdə, "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda tətbiq olunan müasir idarəetmə sisteminin mahiyyətini, fəlsəfəsini açır. Bu cür unikal xidmət mərkəzlərinin yaradılması və fəaliyyəti hökumətin xalq qarşısında bürokratik amillər olmadan, şəffaf və layiqli xidmət etmək niyyətinin ali təcəssümü olaraq Azərbaycan milli brendinə çevrilmişdir. Bu innovasiyalar dövlət idarəçiliyində "müştəri məmnunluğu" ideyasının tətbiqinə, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir. Təsadüfi deyil ki, BMT və digər nüfuzlu təşkilatlar Azərbaycanın elmi innovasiyalar sahəsində qazandığı uğurları yüksək dəyərləndirmiş, "ASAN xidmət"i dünyada yeni və unikal model kimi səciyyələndirmişlər.

Dövlət başçısı əldə olunan iqtisadi nailiyyətlərin tempini, insanların yeniləşən həyat tərzi və təfəkkürünü nəzərə alaraq müasir tələblərlə uzlaşmayan idarəetmə tərzini dəyişməyə, ziyanlı vərdişlərin, bürokratik amillərin aradan qaldırılmasına çalışır. Son ayların kadr islahatları - novatorluğu ilə fərqlənən gənclərin irəli çəkilməsi, idarəetmə aparatının strukturunun təkmilləşdirilməsi, icra hakimiyyəti orqanları qarşısında sərt tələblərin qoyulması dəyişikliklərin miqyasını və tempini sürətləndirmək, vətəndaş məmnunluğunu, şəffaflığı təmin etmək niyyətindən irəli gəlir.

Hakimiyyətin ölkə Konstitusiyası ilə təsbitlənmiş hər üç qolunda - icraedici, qanunverici və məhkəmə hakimiyyətində islahatların paralel şəkildə aparılması onun sistem xarakter daşımasını bir daha təsdiqləyir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, demokratikləşmə prosesində hər üç hakimiyyət qolunun şəffaf, çevik işləməsi, müasir çağırışlara hazır olması başlıca şərtlərdəndir. Azərbaycanda da hər üç hakimiyyət qolunda reallaşdırılan islahatlar fundamental xarakter daşıyaraq insanların arzu və istəklərini tam ifadə edir.

Xüsusilə vurğulamaq lazımdır ki, hakimiyyətin icraedici qolunun müasirləşdirilməsi istiqamətində ilk mühüm addım 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq referendumu ilə Azərbaycan Respublikasında vitse-prezidentlik institutunun yaradılması olmuşdur. Sonrakı mərhələdə - 2017-ci il fevralın 21-də Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi idarəçiliyin müasirləşdirilməsi, hakimiyyətə ictimai inamın daha da gücləndirilməsi baxımından əhəmiyyətli addım olmuşdur. Birinci vitse-prezident vəzifəsinə çoxşaxəli fəaliyyəti ilə milyonların rəğbətini qazanmış layiqli bir şəxsiyyətin təyin olunması Azərbaycanın müasir dövlət idarəetməsi sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı olmuşdur.

Azərbaycanın birinci xanımının bu strateji posta ən layiqli namizəd olduğu onun son iki il yarımdakı fəaliyyətinə nəzərən tam təsdiqini tapmışdır. İctimaiyyət də haqlı olaraq bu təyinatı ölkənin hazırkı və gələcək inkişaf perspektivləri baxımından yüksək dəyərləndirir. Yalnız bu səbəbdən ki, Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyətində insan amilini daim uca tutmuş, cəmiyyətdə insanpərvərlik, humanizm kimi dəyərlərin möhkəmlənməsinə, eləcə də Heydər Əliyev irsinin təbliğinə çalışmışdır. Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə yaradıcı münasibəti, ölkə Prezidentinə yaxından dəstəyi islahatların son illərdə kifayət qədər geniş spektri əhatə etməsini və uğurlu olmasını şərtləndirən vacib amillərdəndir. Onun müasir idarəetmə səriştəsi, yeniliklərə meyilliliyi, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəltmişdir. Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə inkişafın əsasını müəyyən edən idarəetmənin modern əsaslarla aparılması, situasiyaların səmərəli idarə olunması qarşıya qoyulan vəzifələrin uğurlu icrasını təmin edir.

Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətində cəmiyyətin sosial sahələrinə həssas münasibət yenə ön plandadır və bu, 2004-cü ildən həyata keçirilən layihələrin uğurlu davamıdır. Məlumdur ki, Heydər Əliyev Fondu humanitar və sosialyönümlü fəaliyyətində daim cəmiyyətin mənəvi, mədəni-intellektual yüksəlişini təmin etmək, habelə Azərbaycanın zəngin mədəni irsini - tarixi abidələrini, musiqisini, incəsənətini, ümumən isə ölkə həqiqətlərini dolğunluğu ilə dünya ictimaiyyətinə çatdırmaq məramını qarşıya qoymuşdur. Azərbaycanın Birinci vitse-prezidenti bütün bu məqsədlərin həyata keçirilməsi, eləcə də ölkənin hərtərəfli inkişafı, cəmiyyətin mənəvi-intellektual yüksəlişi baxımından təhsilin, səhiyyənin, sosial xidmət sektorunun problemlərinin həllini xüsusilə vacib sayır. Aztəminatlı insanların, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin həllində dövlət başçısı ilə yanaşı, Birinci vitse-prezidentin də xidmətləri müstəsnalıq təşkil edir.

İslahatların ikinci mühüm istiqaməti məhkəmə hakimiyyətini əhatə edir. 2019-cu il 20 mart tarixində xalqa ənənəvi müraciətində cənab İlham Əliyev cəmiyyətin digər sahələri ilə yanaşı, məhkəmə-hüquq sistemində də islahatların davam etdiriləcəyini bildirmişdir: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir".*

Prezident cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının dərinləşməsinə geniş imkanlar açmışdır. Fərmana əsasən, Azərbaycan Respublikasının bütün məhkəmə sədrlərinə və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi kimi prinsiplərə dönmədən riayət etmək tövsiyə edilmişdir.

Fərmanla Ali Məhkəməyə, Məhkəmə-Hüquq Şurasına və Ədliyyə Nazirliyinə sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması tapşırılmışdır. Bununla əlaqədar hazırda hazırda Məhkəmə-Hüquq Şurası tərəfindən inzibati və kommersiya məhkəmələrinin formalaşdırılması istiqamətində ciddi iş aparılır. Xüsusi vurğulamaq istərdik ki, iqtisadi mübahisələrə, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı iddialara ixtisaslaşmış məhkəmələrdə baxılması iş adamlarının hüquqlarının qorunması baxımından da əhəmiyyətli olacaqdır. Ümumilikdə məhkəmələrə ictimai inamın yüksəldilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, bu sahədə xoşagəlməz halların tamamilə aradan qaldırılması Prezident cənab İlham Əliyevin əsas tələblərindəndir.

Bir müddət əvvəl Yeni Azərbaycan Partiyasının təşəbbüsü, ölkə rəhbərinin fərmanı əsasında Milli Məclisin buraxılması ilə bağlı hüquqi prosedurların başa çatdırılması, 2020-ci il fevralın 9-na parlament seçkilərinin təyin olunması ilə islahatlar prosesi hakimiyyətin qanunverici qolunu da əhatə etmişdir. Əminliklə demək olar ki, YAP-ın parlament seçkilərindəki namizədlərinin şəxsi keyfiyyətləri, bilik və bacarığı, vətənpərvərliyi Milli Məclisin cəmiyyətdəki nüfuzunun yüksəlməsinə və mütərəqqi qanun yaradıcılığı prosesinə töhfə olacaqdır.

Bütün bunlarla yanaşı, dövlət başçısı son aylarda şəhər və rayonların icra hakimiyyəti rəhbərlərinin də fəaliyyətinin müasirləşməsinə, icra strukturlarında neqativ amillərin aradan qaldırılmasına çalışır. Yeni təyin etdiyi icra hakimiyyəti başçılarını qəbul edərək xalqa layiqli, vicdanlı, şəffaf xidməti onların qarşısında ciddi tələb kimi qoyur, etimadı doğrultmayanları, korrupsiya və rüşvətxorluqla məşğul olanları sərt şəkildə cəzalandıracağı barədə əvvəlcədən xəbərdar edir. Bir müddət əvvəl Hacıqabul və Naftalan rayonlarının yeni icra hakimiyyəti başçılarını qəbul edən dövlət başçısı demişdir: *"Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı, rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar, - atalar sözü var, "Xalqın gözü tərəzidir", - mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm. Yox, əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir".*

Son günlər Ağstafa və Yevlax rayonlarında aşkar olunan ciddi qanun pozuntuları - korrupsiya faktları ilə bağlı yüksək vəzifəli şəxslərin tutulması və barələrində həbs-qətimkan tədbirlərinin seçilməsi dövlət başçısının tələblərinin çox ciddi olduğunu sübut edir. Bu bir daha cənab Prezidentin yeniləşmə və müasirləşmə, habelə Azərbaycanı sivil, müasir, qüdrətli dövlətə çevirmə yolunda möhkəm siyasi iradə nümayişinin təcəssümüdür. Bu və digər addımlar həm də təfəkkürün və zərərli vərdişlərin dəyişdirilməsi zəruriliyi ilə bağlı cəmiyyətə, o cümlədən məmurlara ciddi siqnaldır.

İş adamı olaraq böyük razılıq hissi ilə qeyd etmək istərdim ki, son vaxtlar icra strukturlarına təyin olunan şəxslərin qarşısında həm də investisiya qoyuluşlarına, sahibkarlığın inkişafına imkan yaratmaq, bürokratik amilləri aradan qaldırmaq kimi ciddi tələblər qoyulur. Bu, dövlət başçısının cəmiyyətdə sabitliyin və inkişafın təminatçısı olan sahibkarlar sinfinə necə böyük diqqət və qayğı ilə yanaşdığını bir daha təsdiqləyir. Şübhəsiz, Azərbaycanda hazırda başlanmış köklü islahatların uğurla reallaşdırılması, iqtisadi inkişafın davamlı olması, qeyri-neft sektorunun tərəqqisi, sosial islahatların genişləndirilməsi, ilk növbədə, özəl sektorun inkişafından keçir.

Sahibkarlığın inkişafı məqsədilə 2003-cü ildən bəri iqtisadiyyatın müxtəlif sahələrinin inkişafını özündə əks etdirən çoxsaylı dövlət proqramları qəbul olunmuş, paytaxt və regionların tərəqqisi təmin edilmişdir. Azad bazar münasibətləri şəraitində Azərbaycan iqtisadiyyatının inkişaf tempini daha da yüksəldən bu proqramlar paytaxt və regionların tarazlı tərəqqisini təmin etməklə bərabər, onların potensialının bir-birinə kömək mexanizmi üzərində qurulmasında da vacib rol oynamışdır. İnfrastruktur yenilənmiş, əhalinin məşğulluğu davamlı olaraq yüksəlmiş, yoxsulluğun səviyyəsi azalmışdır. Ölkənin təbii və iqtisadi potensialından səmərəli istifadə əmsalı davamlı olaraq artmış, insanların həyat şəraiti daha da yaxşılaşmışdır. Təsadüfi deyil ki, BMT İnkişaf Proqramının İnsan İnkişafı Hesabatında Azərbaycan son 10 ildə ən sürətli irəliləyən ölkələrdən biri kimi tanınır.

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin ardıcıl şəkildə reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci, 2009-2014, 2014-2018, 2019-2023-cü illər) dövlət proqramları, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı" (2004-2006-cı illər), "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında", "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında, "Bəzi tikinti obyektlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman və sərəncamları ölkədə sahibkarlığın inkişafına ciddi təkan verən sənədlər kimi yüksək dəyərləndirilir.

Dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın post-neft dövrünə uyğunlaşdırılmasını, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə regionlarda qeyri-neft sektorunun inkişafının sürətləndirilməsini önə çəkir. Bu məqsədlə son 4 ildə sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının, habelə ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması; icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması; sahibkarların hüquqlarının qorunması məqsədilə Apelyasiya Şuralarının yaradılması; ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması; ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi; idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin genişləndirilməsi; sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması reallaşdırılmışdır.

Sabit və sürətli inkişaf məntiqinə əsaslanan bu siyasət həm də ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılmasına xidmət edir. Eyni zamanda regionların sosial-iqtisadi inkişafi ilə bağlı proqramların icrası və nəticələrinin təhlili onu meydana çıxarır ki, ölkənin makroiqtisadi göstəricilərində bölgələrin xüsusi çəkisi əhəmiyyətli dərəcədə yüksəlməyə başlamışdır. 2020-ci ilin dövlət büdcəsindən dotasiya almayacaq şəhər və rayonların sayının 35-i ötməsi bunun əyani təcəssümüdür. Regionların sosial-iqtisadi inkişafının ən ciddi nailiyyətlərindən biri də qeyri-neft sektorunda artımın neft sektoru ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksək olmasıdır. Bu fakt göstərir ki, "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" deyən dövlət başçısı İlham Əliyevin milli iqtisadiyyatın şaxələndirilməsi, neft amilindən asılılığın azaldılması istiqamətində həyata keçirdiyi siyasət real nəticələrini verməyə başlayır. Başqa sözlə, müstəqil respublikamız dünya iqtisadiyyatında neftin qiymətlərinin geosiyasi maraqlar çərçivəsində müəyyənləşdiyi hazırkı mərhələdə enerji resurslarından asılılığı tamamilə minimuma endirmək məramını açıq ifadə edir.

Bütün bunlar Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının təntənəsini göstərən daha bir önəmli amil kimi çıxış edir. Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 16 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, 3 süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyini daha da gücləndirmişdir. Dövlət başçısı cənab İlham Əliyevin diplomatik səyi nəticəsində Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi uğurla gerçəkləşmiş, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənmişdir.

Xatırlatmaq yerinə düşər ki, 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olmuş, bu layihələrin icrası Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətini artırmışdır. Eyni zamanda, 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi mühüm hadisələrdən olmuşdur.

Neft və qaz gəlirlərinin səmərəli istifadəsi, bölgələrə böyük həcmdə investisiyaların yatırılması nəticəsində regionlar sürətlə inkişaf edir. O da xüsusi vurğulanmalıdır ki, regionlarda özəl sektorun inkişafı üçün böyük həcmdə və əsas etibarı ilə güzəştli şərtlərlə kreditlər ayrılır. Kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq, mühərrik yağları, buğda, toxum və gübrəyə görə subsidiyaların verilməsi həyata keçirilir. Texnika, gübrə və toxum təchizatının yaxşılaşdırılması üçün dövlət büdcəsindən vəsaitin ayrılması və vergi güzəştlərinin tətbiqi nəticəsində regionlarda məhsul istehsalının nominal dəyəri bir neçə dəfə artmışdır.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən məqsədyönlü siyasət bu gün Azərbaycanın möhtəşəm nailiyyətlərə imza atmasına gətirib çıxarmışdır. Elə bunun nəticəsidir ki, iqtisadi inkişafdan danışarkən Azərbaycan modelindən də bəhs olunur. İnkişafın Azərbaycan modelinin xarakterik xüsusiyyətlərindən biri də yaşanan tərəqqinin bütün ölkə üzrə - proporsional qaydada paylanmasıdır. Yəni bu gün mövcud inkişaf təkcə mərkəzdə yox, siması günü-gündən dəyişən regionlarda da özünü qabarıq büruzə verir. Son 16 ildə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə regionlarda minlərlə kilometr magistral yol çəkilmiş və ya əsaslı təmir edilmişdir. Bundan başqa, regionlarda səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və idmanın inkişafı məqsədilə onlarca yeni xəstəxana, digər tibb müəssisələri, diaqnostika mərkəzləri, olimpiya-idman kompleksləri tikilərək istifadəyə verilmişdir.

2020-ci ilin dövlət büdcəsinin sosialyönümlü xarakter daşıması da təsadüfi deyildir. Hökumətin müxtəlif kateqoriyaları əhatə edən vətəndaşların sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə xidmət edən iqtisadi siyasəti ümumən insan amilinin inkişafına təkan vermişdir. Respublikanın dövlət büdcəsinin strukturuna əsasən, obyektiv səbəblərdən çalışmaq və zəhmətdən gəlir əldə etmək imkanından məhrum olmuş vətəndaşların problemləri də xüsusi diqqət mərkəzində saxlanılır. Hökumət azad iqtisadi münasibətlərə, azad rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də nəzərdən qaçırmır.

Büdcədə diqqəti çəkən mühüm məqamlardan biri investisiya xərclərinin prioritetliyinin qorunub saxlanılmasıdır. Gələn ilin dövlət büdcəsi xərclərinin strukturunda ilk yerlərdən birini ənənəvi olaraq dövlət əsaslı vəsait qoyuluşları tutur. Bu təsnifat üzrə dövlət büdcəsindən ayırmaların yüksək templə artması, ilk növbədə, hökumətin ictimai həyatın bütün sahələrində modernləşməyə nail olmaq istəyindən irəli gəlir. Sovet dövründən qalma infrastrukturla müasir Azərbaycanın artan ehtiyaclarını təmin etməyin, iqtisadi inkişafda davamlı və sabit inkişafa nail olmağın, sahibkarlığı inkişaf etdirməyin, əhalinin həyat keyfiyyətini yüksəltməyin qeyri-mümkünlüyü yaxşı məlumdur. 2020-ci il dövlət büdcəsində əsaslı xərclərin maliyyələşdirilməsi üçün 7809,6 milyon manat və ya xərclərin 29,0 faizi həcmində vəsait nəzərdə tutulmuşdur.

Bu faktlar bir daha təsdiqləyir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi-siyasi və iqtisadi islahatlar yeni mərhələdə modernləşmə xəttinin uğurla davam etdirilməsi üçün real zəmin yaratmışdır. Respublikamız qloballaşan dünyanın tərkib hissəsi kimi demokratik inkişaf yolunda inamla irəliləyir, yüksək iqtisadi inkişaf tempinə adekvat olaraq demokratik dəyərləri mənimsəyir. Ölkəmizin ildən-ilə artan sosial-iqtisadi imkanları deməyə əsas verir ki, Azərbaycan modernləşmə mərhələsini də tezliklə başa vuraraq dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada dayanmaq imkanı əldə edəcəkdir.

İslahatlar prosesində Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Dövlət rəhbərinin müəyyən etdiyi prioritetlərin icrasına ümumxalq dəstəyini hər an görürük. Bu gün Azərbaycan xalqı İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona güvənir.

*Azərbaycanın mənafelərinə xidmət göstərən amalların həyata keçirilməsində vətəndaşlar Prezidentə dəstəyini əsirgəmir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanımızın parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı müdafiə edir.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər"QSC-nin sədri, iqtisad elmləri doktoru***

# Müstəqil, qürurlu dövlətin qətiyyətli lideri



**2019-cu il Azərbaycan tarixində bir çox mühüm və əlamətdar hadisələrlə yadda qaldı. İslahatlar dalğası bir çox sahələri əhatə etdi, Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu, dövlət müstəqilliyini möhkəmləndirdi, beynəlxalq aləmdə nüfuzunu daha da artırdı.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həm ölkə daxilində, həm də xaricində keçirilən tədbirlərdəki çıxışlarında ölkəmizin bugünü və gələcəyi ilə bağlı bir çox vacib məqamlara toxundu, cəmiyyətə mesajlar verdi.

Bu çıxışlar sırasında Prezident İlham Əliyevin 26 noyabr 2019-cu il tarixində Bakı Konqres Mərkəzində Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubiley mərasiminin keçirildiyi tədbirdəki tarixi nitqi xüsusi yer tutur. Prezident İlham Əliyev bu mərasimdəki çıxışında Azərbaycanın müasir dövrü, gələcəyi, milli-mənəvi dəyərlərimiz, elm və təhsil, xarici təhdidlərlə bağlı bir çox vacib məsələyə geniş toxundu, açıq fikirlərini bildirdi.

Sözügedən çıxış cəmiyyətdə böyük əks-səda doğurduğundan bugünədək onun ətrafında geniş müzakirələr aparılır və gələcəkdə də aparılacaq. Prezident İlham Əliyevin nitqində ölkəmizin tarixin müxtəlif mərhələlərində qarşılaşdığı çətinliklərdən və gənclərimizin müasir dövrdə üzləşdiyi təhdidlərdən geniş bəhs olundu, bunlardan çıxış yolları göstərildi, eləcə də dəyərli tövsiyələr verildi.

Prezident öz çıxışına Bakı Dövlət Universitetinin yaranma tarixindən, bu addımı atmaqla Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısında böyük xidmət göstərdiyindən bəhs etməklə başladı. Bu, ümumilikdə cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, qısa müddətdə gördüyü böyük işlərə verdiyi yüksək dəyərin bariz göstəricisi idi.

Daha sonra savadsız cəmiyyətdə güclü dövlət qurmağın mümkün olmadığını bildirən cənab İlham Əliyev Bakı Dövlət Universitetinin yaranma tarixinə, üzləşdiyi çətinliklərə, eləcə də cəmiyyətə verdiyi faydalara faktlarla toxunaraq, 100 il ərzində universitetin 200 minə yaxın məzunu olduğunu, onların arasından görkəmli şəxslər, alimlər, ictimai-siyasi xadimlər, siyasətçilər, mütəxəssislər çıxdığını, bir çoxunun Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini verdiyini qeyd etdi.

Prezident həmçinin bildirdi ki, Azərbaycan xalqının fəxri olan Ümummilli Lider, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də məhz Bakı Dövlət Universitetinin məzunu olub. Heydər Əliyev həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik illərində xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərib. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridəqalmış sıralardan qabaqcıl yerlərədək yüksəldi. Sovet dönəmində Ulu Öndər 13 il ərzində Azərbaycana hər il "Keçici Qırmızı bayraq" qazandırdı; onun rəhbərliyi ilə vətənimiz böyük uğurlu yol qət etdi, 15 müttəfiq respublika arasında iki donor respublikadan biri oldu.

Universitetin fəxri olan Ümummilli Liderin tarixi xidmətlərinin yalnız təhsillə bağlı fəaliyyətindən bəhs edərkən Prezident qürurla bildirdi ki, Heydər Əliyev bu sahəyə daim böyük diqqət göstərirdi. Azərbaycan gənclərinin keçmiş Sovet İttifaqının aparıcı ali təhsil məktəblərində oxumaları üçün böyük zəhmət çəkib. Sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın gənc Bakıda imtahan verib keçmiş Sovetlər İttifaqının Moskva, Leninqrad (indiki Sankt-Peterburq - müəl.) və digər böyük şəhərlərindəki qabaqcıl ali məktəblərində təhsil almağa göndərilirdi.

Prezident həmçinin öz çıxışında qeyd etdi ki, Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. O vaxt azərbaycanlılar Sovet Ordusunda az təmsil olunduqlarından Heydər Əliyev çox istəyirdi ki, yerli hərbçilər yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqillik qazanacaq və bu kadrlar bizə lazım olacaq.

Dövlət başçısı daha sonra vurğuladı ki, gənclərin və tələbələrin məlumatlı olmaları, mənfi, yad təsirlərə uymamaları üçün ölkəmizin müstəqilliyəqədərki dövründə də, müstəqillik illərində də Heydər Əliyev daim xalqın yanında olmuşdur.

20 Yanvar faciəsi baş verdikdən dərhal sonra Ulu Öndərin atdığı addımlardan və bir sıra tarixi xidmətlərindən bəhs edən cənab İlham Əliyev bildirdi ki, lider daim xalqın yanında olmalıdır - necə ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Prezident Ümummilli Lideri gənclərə və gələcək nəsillərə nümunə olaraq göstərdi.

Prezident İlham Əliyev "Burada əyləşən gənclər tariximizi düzgün bilməlidirlər" deyərək Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə insanların saatlarla çörək növbəsində dayandıqlarını, əlisilahlı quldurların meydan suladıqlarını, şəhərlərimizdə insanların incidildiklərini, oğurlandıqlarını, işgəncələrə məruz qaldıqlarını, jurnalistlərin döyüldüklərini qeyd etdi. Özlərini "demokrat" adlandıran bu ünsürlərin qeyri-insani hərəkətlərindən, onların dövlətə və dövlətçiliyə vurduğu ziyanlardan bəhs edərək, ləl-cəvahirat fondunun talanmasından, ölkənin böhran vəziyyətinə salınmasından danışdı.

Xalqımızın faciələrlə dolu tarixindən söhbət açan Prezident İlham Əliyev əsrlər boyu müstəmləkə vəziyyətində yaşadığımızı xatırlatdı. Həmçinin müstəqilliyimizi istəməyən xarici hərbi missionerlərin o vaxt qəbul edilmiş birinci Dövlət bayrağımızı dəyişdirməsindən, indiki üçrəngli bayrağın təsis edilməsindən, bugünümüzdən və ölkənin inkişaf dinamikliyindən bəhs etdi.

"Gənclər əsas qüvvədir və Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar" söyləyən cənab Prezident müəllimləri məsuliyyətli olmağa, tələbələrə biliklər öyrətməklə yanaşı onları tərbiyə etməyi də tövsiyə etdi. Bu sözlər Azərbaycan Prezidentinin gənclərə inam və etimadının növbəti göstəricisi idi. Bəli, Azərbaycan gəncləri vətənlərini sevirlər, ona bağlıdırlar. Eyni zamanda, onlar öz Prezidentlərinə sadiqdirlər, onun ətrafında sıx birləşiblər.

İlham Əliyev Azərbaycanda tərbiyə işinin yeni müstəviyə qalxmasının zəruriliyini xüsusi vurğuladı. İdeoloji işə yenidən baxılmasının vacibliyini diqqətə çəkən dövlət başçısı bu sahədə zəifliklər və boşluqlar olduğunu bildirdi. "Bizi istəməyən qüvvələr bu boşluqlardan istifadə edirlər" söyləyən cənab Prezident vurğuladı ki, hazırda azad internet şəbəkəsi mövcuddur. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-ni keçib. Prezident "Ölkəmizdə azad, demokratik cəmiyyət formalaşıb, azad media var. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik" ismarıcını verdi. Bu, cənab İlham Əliyevin müəllimlərə öz işlərinə, gənclərə gələcəkləri ilə bağlı növbəti dəyərli tövsiyəsi idi. Bəli, Cənab Prezidentin də qeyd etdiyi kimi, azad internet şəbəkəsinin olması, müsbət tərəfləri ilə yanaşı, bu gün gənclərin beyinlərini zəhərləmək üçün düşmənlərin əlində ən güclü silahlardan birinə çevrilib. Gəncləri bu təhdidlərdən qorumaq üçün tərbiyə işini gücləndirməli, onlarla daha sıx işləməliyik.

Prezident İlham Əliyev daha sonra bildirdi: "Azərbaycan inkişaf edir. Dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər". Ali Baş Komandan mərasim iştirakçılarının nəzərinə qürurla çatdırdı ki, 155 ölkənin səsi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilib: "Özü də necə, 8 il bundan əvvəlki kimi səs topladıq. İndi diplomatlar yaxşı bilirlər ki, adətən səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi".

Prezident bugünün prioritet mövzusu olan Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən, Bakıda keçirilən Zirvə görüşündə 120 ölkənin ölkəmizə səs verməsindən, Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Diskussiya Klubunda iştirakından da danışdı. Mərasim iştirakçılarına bütün dünyaya verdiyi "Qarabağ Azərbaycandır, nida işarəsi" mesajını xatırlatdı.

Daha sonra MDB Zirvə görüşündə iştirakından söhbət açan ölkə rəhbəri dedi ki, MDB məkanında faşistlərə abidə ucaldılmasına yol verə bilmərik. Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir.

Njdenin cinayətkar əməllərindən, casusluğundan, necə həbs olunduğundan və həbsxanada çürüməsindən tarixi faktlarla danışan dövlət başçısı belə bir caniyə heykəl qoyulmasının yolverilməzliyini vurğuladı.

Prezident daha sonra qeyd etdi ki, Ermənistanda hakimiyyət dəyişsə də, ölkənin faşist mahiyyəti dəyişməyib. Bu faşist mahiyyəti bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrətə gedib çıxır. Onlar uşaqlarını da bu ruhda tərbiyə edirlər.

Müsəlman ölkələrinin Ermənistan rəhbərləri ilə münasibətlərindən təəccübünü bildirən Prezident İlham Əliyev nitqini bu notlarla davam etdirdi:

- Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə islam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Bu, Cənab Prezidentin müsəlman ölkələrinin xalqlarına və rəhbərlərinə ermənilərin faşist mahiyyətini açan növbəti mesajı və çağırışı idi.

Prezident İlham Əliyev 2019-cu ildə ölkəmiz üçün əlamətdar olan digər bir tədbirdən də söhbət açdı. Azərbaycan artıq bir çox sahədə olduğu kimi, dinlər və mədəniyyətlərarası dialoqa da mühüm töhfələr verir. Bunu bir çox böyük dünya ölkələri də etiraf və qəbul edirlər. İlham Əliyev qeyd etdi ki, noyabr ayında paytaxtımızda Dünya dini liderlərinin II Bakı Sammiti keçirilmişdir, 70 ölkənin dini lideri Bakıya gəlmişdir. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur:

- Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölübdür, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, "Stop İslam" deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik, - mən Avropa ölkələrini nəzərdə tuturam, - ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasət yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük. Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik.

Bəli, bu gün hətta inkişaf etmiş bir sıra Avropa ölkələrində digər mədəniyyətlərə dözümsüzlük, ksenofobiya və islamofobiya hallarının artdığı bir dövrdə dünyanın ayrı-ayrı ölkələrindən müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin ölkəmizdə bir araya gəlməsi multikulturalizmin ölmədiyini, birgə əməkdaşlığın və qarşılıqlı anlaşmanın mümkün olduğunu, bu işdə Azərbaycanın böyük rol oynadığını və ölkəmizin öz töhfəsini verdiyini göstərir.

Azərbaycanda iqtisadiyyatın inkişafından, kadr islahatlarından, gender bərabərliyindən mərasim iştirakçılarına konkret faktlarla söhbət açan Prezident sanki xalqının ziyalı zümrəsinə ölkə haqqında hesabat verir, dünyada cərəyan edən mürəkkəb prosesləri təhlil etməklə yanaşı, bu problemlərdən xilas və çıxış yollarını da göstərirdi.

On minlərlə mütəxəssis yetişdirən müəllim peşəsindən qürurla danışan dövlət başçısı özünün də əmək fəaliyyətinə müəllim kimi başladığını, bu işin şərəfli və məsuliyyətli olduğunu vurğuladı. Xoş bir təbəssümlə "Mən də müəllim olmuşam, müəllim kimi sizi salamlayıram" söylədi. Bu, Prezident İlham Əliyevin müəllimlik peşəsinə, təhsilə və elmə verdiyi önəmin və dəyərin növbəti göstəricisi idi.

Respublika Prezidentinin çıxışında diqqətçəkən məqamlardan biri də tələbələrə səslənərək onlara bilikli olmağı, diplom üçün yox, savad, elm kəsb etmək üçün oxumağı tövsiyə etməsi oldu. Həmçinin biliyin, savadın tələbələrin təminatlı gələcəyini müəyyənləşdirən amil olduğunu xatırladaraq, gəncləri vətənpərvər olmağa, Vətəni sevməyə səslədi.

Ölkə rəhbəri tarixi nitqini məhz bu sözlərlə yekunlaşdırdı:

- Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin. Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir. Bir daha sizi təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram.

Prezident İlham Əliyevin tarixi çıxışı, irəli sürdüyü tezislər bu gün ali təhsil müəssisələri, o cümlədən Azərbaycan İlahiyyat İnstitutu qarşısında konkret vəzifə və tapşırıqlar müəyyənləşdirir. Hazırda Azərbaycan İlahiyyat İnstitutu bu vəzifələri uğurla yerinə yetirmək, vətənə və dövlətə bağlı, milli ruhda kadrlar yetişdirmək üçün bütün gücü ilə fəaliyyət göstərir.

*İnanırıq ki, Prezident İlham Əliyevin möhkəm iradəsi, uzaqgörənliyi və həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan daha da inkişaf edəcək və daha böyük uğurlara imza atacaqdır.*

**Ceyhun MƏMMƏDOV,**
***Azərbaycan İlahiyyat İnstitutunun rektoru***

# Xalqa şərəfli xidmət nümunəsi

Hər bir hakimiyyətin ictimaiyyət qarşısındakı öhdəliklərə sadiqliyi onun xalqa xidmət səviyyəsini şərtləndirən başlıca meyarlardan biridir. Cəmiyyətin inamını qazanmaq istəyən hər hansı siyasi qüvvə təkcə məqsəd və hədəflərini bəyan etməklə kifayətlənmir, eyni zamanda hər bir fərdin mənafeyinə hesablanmış islahatlara müəlliflik edərək davamlı inkişafa təminat yaradır. Əlbəttə, bu da bir reallıqdır ki, bəzən irəli sürülən ideyalar cəlbedici görünsə belə real icra mexanizmlərinin olmaması onların kağız üzərində qalması ilə nəticələnir. İnsanları populist sözlər yox, real, konkret iş, bir qədər də dəqiqləşdirsək, bu işin əməli nəticələri daha çox maraqlandırır.

Azərbaycan xalqının Ümummilli Lideri, böyük dövlət xadimi Heydər Əliyevin ən layiqli siyasi varisi cənab İlham Əliyev hələ 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkilərinə *"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"* devizi ilə qatılmışdı. Bu deviz, əslində, həmin dövrə qədərki fəaliyyəti ilə insanların nəzərində zirvələrə ucalmış cənab İlham Əliyevin xalq üçün çalışmaq, onun arzu və istəklərini real, əməli fəaliyyət müstəvisində, konkret platforma əsasında gerçəkləşdirmək, "hər bir azərbaycanlının layiqli Prezidenti olmaq" istəyinin yığcam, lakin son dərəcə dərin, ümumiləşdirilmiş fəlsəfi məzmununu özündə ehtiva edirdi.

Əsl siyasi lideri xarakterizə edən keyfiyyətlər sırasında onun irəli sürdüyü vədlərə sadiqliyi, xalqın inamını doğrultmaq üçün əzmlə, səylə çalışmaq bacarığı xüsusi yer alır. Hələ hökumətin 2003-cü il 17 noyabr tarixində keçirilmiş ilk iclasındakı çıxışında "Biz xalqın xidmətçisiyik. Hər bir məmurun vəzifəsi xalq üçün çalışmaq, ona göstərilmiş etimadı doğrultmaqdır" deyən dövlət başçısı ötən 16 ildə məmurlara etimad meyarını məhz onların fəaliyyətinə nəzərən müəyyənləşdirmiş, eləcə də vətəndaşların görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır.

Hökumətin hər rüb üzrə hesabatlarının açıqlanması Azərbaycanda dövlət idarəçiliyinin səmərəliliyi ilə yanaşı, şəffaflığına, hesabatlılığa etibarlı zəmin yaradır. İctimaiyyətin böyük maraqla qarşıladığı bu toplantılar eyni zamanda ölkəmizin qısa müddətdə qazandığı böyük uğurlara, möhtəşəm nailiyyətlərə işıq salır. Bu məqamda cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclaslarının birində söylədiyi bu qətiyyətli fikirləri xatırlatmaq yerinə düşər: *"Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq. Məmurlar, dövlət qurumlarının nümayəndələri xalqla bir yerdə olmalıdırlar, onların qayğıları ilə yaşamalıdırlar, kobudluğa, yekəxanalığa yol verilməməlidir".*

Əgər Ulu Öndər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 90-cı illərində xaos və tənəzzüldən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir. Ötən 16 ildə dövlət başçısının iqtisadi siyasətinin əsasında "güclü dövlət, sabitlik və sosial rifah" tezisi dayanmışdır. Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin ana axarını təşkil edir.

Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət kəsb edir. Avropa Şurasının tamhüquqlu üzvü olan respublikamız ATƏT, Avropa Birliyi, NATO kimi təşkilatlarla sıx əməkdaşlığı hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin dönməzliyinə etibarlı təminat kimi qiymətləndirir.

Son illər bir sıra mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkan olaraq Bakı şəhərinə üstünlük verilməsi respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. "Avrovizion - 2012", I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, eləcə də "Formula -1" yarışları ölkəmizin beynəlxalq imicini daha da yüksəltmiş, onun qlobal tədbirlərə layiqincə rəhbərlik etmək təşkilatçılığını nümayiş etdirmişdir. Bütün bunlar, eyni zamanda, respublikamızın sivilizasiyalararası dialoq prosesində fəal mövqe tutduğunun, zəngin Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynadığının göstəricisi olmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə uğurlu nəticələr əldə etməsi mümkün deyildir. Eləcə də iqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər səmərəsiz olur. Azərbaycanda mərhələlərlə gerçəkləşdirilən siyasi-hüquqi islahatların əsas qayəsində ölkədə liberal dəyərlərin, insan və vətəndaş hüquq və azadlıqlarının prioritetinə əsaslanan, cəmiyyətdə təkamül yolu ilə əxz edilən suveren demokratiya modelinin formalaşdırılması məqsədi dayanır.

"Siyasətimizin əsasında insan amili dayanır" deyən dövlət başçısının həyata keçirdiyi islahatlar tam mahiyyəti ilə vətəndaşların hüquqlarının və qanuni mənafelərinin təminatına yönəlmişdir. Bu ümdə məqsəd önə çəkilməklə ötən müddətdə gerçəkləşdirilən hüquqi-siyasi islahatların mühüm bir istiqamətini də məhz məhkəmə və ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, yeni dövrün tələblərinə uyğunlaşdırılması təşkil etmişdir. Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə infrastrukturun müasirləşdirilməsi, yeni regional məhkəmələrin yaradılması, habelə hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Son 10 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən regional apellyasiya, ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə yaradılaraq fəaliyyətə başlamışdır.

Dövlət başçısı İlham Əliyevin ölkədə siyasi barışığın, vətəndaş həmrəyliyinin və sülhünün təmin olunması, əksqütblü qüvvələr arasında etimad mühitinin formalaşdırılması istiqamətində atdığı addımlar onun ədalətli rəhbər obrazını şərtləndirən amillər sırasında xüsusi vurğulana bilər. Ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın bütün vətəndaşlarının iştirakının təmin edilməsi, müxalifətin sağlam, konstruktiv dialoqa dəvət olunması Prezident İlham Əliyevin milli birliyin möhkəmləndirilməsi istiqamətində atdığı addımlardandır. Buna əyani misal kimi, ötən 16 ildə 30-dək əfv fərmanı imzalanmasını və 7000-dən artıq məhkumu əfv etməsini vurğulamaq olar. Bu məqam cənab İlham Əliyevin idarəçilik fəlsəfəsində humanizm və insanpərvərlik ideyalarının parlaq xətt təşkil etdiyini göstərir.

Dövlət orqanları tərəfindən əhaliyə xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsi məqsədilə 2012-ci ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təsis edilməsi, qurumun nəzdində "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanın dövlət idarəetmə sistemində inqilabi dəyişiklikləri təmin etmişdir. 2019-cu il aprelin 18-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində dövlət başçısı şəffaflığa və hesabatlılığa əsaslanan siyasətin bundan sonra davam etdiriləcəyini vurğulamışdır: *"Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk".*

Mühüm hüquqi islahatlar fonunda 2009-cu və 2016-cı illərdə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan ümumxalq referendumlarının keçirilməsini xüsusi vurğulamaq lazımdır. Hər iki referendumda ciddi ictimai dəstək almış yeniliklər hüquqi baxımdan Konstitusiyanın bir çox normalarını yeni dövrün tələblərinə uyğunlaşdırmaq məqsədi daşıyaraq insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində dövlətin məsuliyyətini artırmış, onun üzərinə bir sıra yeni hüquqi öhdəliklər qoymuşdur.

2016-cı ilin 26 sentyabr referendumu ilə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərlə Azərbaycanda vitse-prezident institutunun yaradılması da mühüm yeniliklərdən biri olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gəlmişdir. Birinci vitse-prezident bu gün də dövlətin sosial-humanitar, təhsil və mədəniyyət siyasətinin uğurla həyata keçirilməsi prosesində yaxından iştirak edir, islahatlar prosesinə mühüm töhfələr verir. Birinci vitse-prezident vəzifəsi Mehriban xanım Əliyevaya dövlət idarəçiliyində ölkənin hər bir vətəndaşına daha layiqli xidmət göstərmək, xalqın maraq və mənafeyini lazımınca təmsil etmək imkanını genişləndirmişdir.

İnsan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması da bu əzmkar fəaliyyətdə mühüm yer tutur. Hələ 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya təşəbbüsü ilə çıxış edən fondun prezidenti Mehriban xanım Əliyevanın insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığı bir daha təsdiqini tapmışdır. Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Nazirlər Kabinetinin 2018-ci ilin 11 aprel seçkilərindən sonra təsdiqlənmiş yeni tərkibi və əsaslı kadr əvəzlənmələri fonunda dövlət idarəetmə sisteminin tamamilə yenilənməsi prosesinə start verilmişdir. Cənab İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və ya digər mühüm qərarlar qəbul edir, gəncləri dövlət idarəetməsinə irəli çəkir. Menecer təfəkkürlü, müasir dünyanın aktual çağırışlarını adekvat qiymətləndirməyi bacaran gənc və perspektivli kadrların mühüm postlara təyin edilməsi Azərbaycanda sistem xarakterli islahatlara etibarlı zəmin yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin xüsusilə son aylarda apardığı ciddi kadr dəyişiklikləri, məmurlara, dövlət rəsmilərinə fəaliyyətlərini məhz vətəndaşların mənafelərinin müdafiəsi barədə qəti tapşırıqlar verməsi ictimai fikirdə demokratik inkişafa xidmət edən islahatların uğurla gedəcəyinə qəti inam yaratmışdır. Dövlət başçısı idarəçiliyin təkmilləşdirilməsi prosesini daim diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin, xidmətlərin yaradılmasını da vacib sayır.

Hüquqi dövlət quruculuğu siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətində korrupsiyaya qarşı mübarizə, aşkarlıq və şəffaflığın təmini tədbirləri də xüsusi yer tutur. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində müxtəlif kateqoriyadan olan məmur təbəqəsinin və digər vətəndaşların sosial rifah tədbirlərinin genişləndirilməsi, qanunçuluğun gücləndirilməsi və maarifləndirmə yolu ilə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri xüsusi diqqətdə saxlanılır. Son günlər bəzi rayonların rəhbər şəxslərinin korrupsiya və digər neqativ hallara görə həbs edilməsi bir daha göstərir ki, ölkənin müasirləşdirilməsi, idarəçiliyin şəffaflaşdırılması naminə ciddi siyasi iradə ortaya qoyulub və edilən xəbərdarlıqlardan nəticə çıxarmayanlar bundan sonra da sərt şəkildə cəzalandırılacaqlar.

2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanla məhkəmə sisteminin əsaslı şəkildə müasirləşdirilməsi prosesinə start verilməsi, eləcə də parlament seçkilərinin keçirilməsi Azərbaycanı sivil və hüquqi dövlətə çevirmək yolunda ciddi siyasi iradə nümayişidir.

Bütün bunlar - iqtisadi inkişaf, demokratikləşmə, dövlət idarəçiliyində şəffaflığın təmin olunması istiqamətində atılan davamlı addımlar xarici siyasətin uğurla reallaşdırılmasına yaxşı imkanlar açmışdır. Son 16 ildə iqtisadi inkişaf və demokratikləşmə xəttini milli inkişafın dəyişməz formulu kimi önə çəkən dövlət başçısı respublikamızın qlobal siyasi arenada müsbət imiclə tanınmasını, regional və beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzinə çevrilməsini təmin etmişdir. Beləliklə, həm də hücum xətti üzərində qurulan çevik və səmərəli xarici siyasət yürütmək imkanı qazanan cənab İlham Əliyev "güclü dövlət - müstəqil siyasət" devizini praktiki olaraq gerçəkləşdirmişdir.

*2018-ci ilin 11 aprel seçkilərindən sonrakı proseslər dövlət başçısının inqilabi yeniliklərin təşəbbüskarı və ən fəal icraçısı olduğunu bir daha sübut edir. Xalqın böyük rəğbətlə qarşıladığı bu islahatlar Azərbaycanı daha da müasirləşdirməklə, onun qısa müddətdə inkişaf etmiş ölkələr sırasında dayanmasına real imkanlar açır. Ən əsası, həyata keçirilən tədbirlər dövlət başçısına ictimai inam və etimadı gücləndirir, xalq-iqtidar birliyini daha möhkəm, daha sarsılmaz edir.*

**Əsmər ƏLİYEVA,**
***Bakı Dövlət Universitetinin dosenti, hüquq üzrə fəlsəfə doktoru***




# Müstəqil dövlətin müstəqil xarici siyasəti

## Prezident İlham ƏLİYEV: "Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik"

**Tarixin hansı mərhələsində olursa-olsun, dünyanın siyasi xəritəsində meydana çıxan yeni müstəqil dövlət ayaq üstə qalmaq üçün bir-birindən çətin sınaqlarla üz-üzə gəlir. Bəzən bu proses obyektiv və subyektiv səbəblərdən uzun illər davam edir, ictimai-siyasi kataklizmlərlə müşayiət olunur. Bu baxımdan Azərbaycanın milli müstəqilliyini bərpa etməsi dövründə yaşadığı sarsıntılar ibrətamizdir.**

Məmləkətimiz müstəqil inkişaf yoluna qədəm qoyar-qoymaz güclü havadarlara arxalanan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdı. Torpaqlarımız işğal edilir, yüz minlərlə həmvətənimiz yurd-yuvasından didərgin düşürdü. Yeni müstəqil dövlətə rəhbərlik edənlərin səriştəsizliyi üzündən cəmiyyətdə yaranmış çoxsaylı problemlərə əlac tapılmır, ölkə ümummili böhrana sürüklənirdi. Üstəlik, xaricdən dəstək alan ayrı-ayrı qruplaşmalar dövlətin və xalqın taleyini kənara qoyub hakimiyyət uğrunda mübarizəyə girişmişdi. Çoxlarına elə gəlirdi ki, Azərbaycan dövlətçiliyi baş tutmayacaq, ölkə daim böhran burulğanında çapalayacaq.

Belə bir ağır şəraitdə təcrübəli dövlət xadimi Heydər Əliyevin siyasətə qayıdışı qaranlıq tuneldə işıq kimi göründü. Mahir siyasətçi cəmi bir neçə il ərzində cəmiyyətdə hərc-mərcliyə son qoyub daxili sabitliyi bərpa etməyə və ölkəni davamlı inkişaf yoluna çıxarmağa nail oldu. Çox keçmədi ki, karbohidrogenlərlə zəngin Azərbaycan beynəlxalq inkişaf layihələrinin təşəbbüskarı və icraçısı kimi çıxış etməyə başladı. 1994-cü ildə aparıcı xarici neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının yolunu açdı. Ardınca Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz yataqlarının istismarı haqqında xarici tərəfdaşlarla coxsaylı müqavilələr bağlandı, dövlətimizin beynəlxalq iqtisadi münasibətlər sistemində çəkisi artdı.

Öz növbəsində Prezident İlham Əliyev dövlət siyasətində varisliyə sadiq qalaraq düşünülmüş daxili və xarici siyasət xəttini uğurla davam etdirdi. Ötən 16 il ərzində dövlət başçısı bu xətdən bir addım belə kənara çıxmadı, qarşıya qoyulmuş sabit inkişaf strategiyasını reallaşdırmaq naminə səylərini əsirgəmədi.

Bir vaxtlar dünyada tanınmayan Azərbaycan indi beynəlxalq aləmdə layiqli yer tutur. İlk növbədə milli neft strategiyasının ardıcıl olaraq reallaşdırılması sayəsində Azərbaycan dünya iqtisadiyyatına sıx inteqrasiya olmuşdur.

Ölkəmizin yerləşdiyi Cənubi Qafqaz-Xəzər regionu planetdə strateji mövqeyi ilə diqqəti cəlb edir. Lakin bu yalnız dünyanın siyasi xəritəsində belədir. Real həyatda isə vəziyyət tamamilə fərqlidir: supergüclər və regional aktorlar bu regionda mövqelərini möhkəmlətməyə çalışır, məqsədlərinə nail olmaq üçün hər cür vasitələrə əl atır, burada qovşaq rolu oynayan Azərbaycan isə həmişə risklərlə qarşı-qarşıya qalır. Odur ki, belə bir mürəkkəb regionda müstəqil siyasət yürütmək elə də asan deyil və dövlət rəhbərliyindən xüsusi məharət tələb edir. Azərbaycan Respublikasının Prezidenti siyasi məharəti ilə milli müstəqilliyə qənim kəsilmiş xarici qüvvələrin istəklərini puç edir. Müasir Azərbaycan böyük tarixlə müqayisədə qısa zaman kəsiyində beynəlxalq aləmdə etibarlı tərəfdaş imicinin sahibi olmuş və nəticə etibarilə dünya adlı ailədə layiqli yer tutmuşdur. Bu gün ölkəmizin beynəlxalq aləmdə çəkisi mütəmadi olaraq artır.

Hər bir dövlət kimi, Azərbaycan da təcavüzkar Ermənistan istisna olmaqla bütün qonşu ölkələrlə mehriban münasibətlər yaratmağa xüsusi əhəmiyyət verir. Özü də dövlətimiz bu işdə təşəbbüskar kimi irəli çıxır. Regional iqtisadi inkişaf naminə həm ikitərəfli formatda, həm də üçtərəfli və hətta dördtərəfli formatda qonşuluq əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Azərbaycanın Türkiyə, İran, Rusiya, Gürcüstan və Türkmənistanla çoxtərəfli formatda əməkdaşlığı bəhrəsini verir, mehriban qonşuluq münasibətində olan ölkələrin inkişafına əhəmiyyətli töhfə verir. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında qovşaq kimi fəal iştirak edir. Bu gün sözügedən nəqliyyat dəhlizlərində 10-dan çox ölkə əməkdaşlıq edir. Yalnız bir ölkə - Azərbaycan hər iki layihədə iştirak edir. Coğrafi mövqedən səmərəli istifadənin nəticəsidir ki, Azərbaycan artıq Avrasiyanın nəqliyyat mərkəzinə çevrilmişdir.

Lakin Azərbaycan təkcə qonşularla əməkdaşlığı genişlətməklə kifayətlənmir. Dövlətimiz uzaq ölkələrlə də müxtəlif sahələrdə əlaqələri inkişaf etdirməyi hədəfləyir. Bu baxımdan Avropa ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Köhnə dünya ilə işbirliyində aparıcı istiqamət energetikadır. Azərbaycan zəngin təbii qaz yataqlarını istismar edib dünya bazarına mavi yanacaq nəql etməkdə maraqlı idi, potensial alıcı isə Avropa İttifaqı (Aİ) idi, çünki Aİ enerji təhlükəsizliyini təmin etmək üçün alternativ yollar axtarırdı. Bu məqsədlə tammiqyaslı "Cənub qaz dəhlizi" layihəsini reallaşdırmaq məsələsi gündəliyə gəlmişdi. Əvvəllər Azərbaycan bu dəhliz vasitəsilə yalnız Gürcüstan və Türkiyəni qazla təchiz edirdi. 2014-cü il sentyabrın 20-də isə tammiqyaslı dəhlizin təməli qoyuldu.

Özü də "Cənub qaz dəhlizi" adi layihə deyil. "Əsrin müqaviləsi" XX əsrin layihəsi olduğu kimi, "Cənub qaz dəhlizi" də XXI yüzilliyin layihəsidir. Yeni layihəyə 45 milyard dollar investisiya qoymaq nəzərdə tutulmuşdur. Boru kəməri sistemi 3600 kilometrlik məsafə qət edərək Xəzər dənizini Avropanın mərkəzi ilə birləşdirəcək. İndiyədək Azərbaycanın neft-qaz layihələrində cəmi üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə iştirak edirdi. Bundan sonra isə iştirakçı ölkələr çox olacaq, cənub-şərqi Avropanın bir çox ölkələri - Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, perspektivdə isə Monteneqro, Bosniya, Xorvatiya və başqaları Xəzərdə başlamış əməkdaşlıq prosesinə qoşulacaq. Yeni qaz kəmərinin inşası Xəzər, Qara dəniz və Aralıq dənizi hövzələrinin ölkələri üçün yeni imkanlar yaradacaq, geniş bir coğrafiyada regional iqtisadi inkişafa böyük töhfə verəcək. Bununla bərabər, "Cənub qaz dəhlizi" gələcəkdə Yaxın Şərqin təbii qaz hasil edən ölkələrinin Avropa bazarına çıxmasına şərait yaradacaq. Artıq tammiqyaslı "Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılması başa çatmaq üzrədir. Layihənin əsas hissəsi - Türkiyə ərazisindən keçən Trans-Anadolu Təbii Qaz Boru Kəməri artıq hazırdır. Layihənin son komponentinin - Trans-Adriatik Boru Kəmərinin inşasının gələn il başa çatacağı gözlənilir.

Belə bir məqamı da vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin xarici siyasəti prinsipiallığı ilə seçilir. Təkcə bir faktı xatırlatmaq kifayətdir. Azərbaycan regional əməkdaşlığı dərinləşdirmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini reallaşdırmaq təklifini irəli sürəndə rəsmi Bakıya təzyiq artmağa başladı. Dəmiryolu xəttinin inşası 2005-ci ildə başlamalı idi. O vaxt ABŞ və Aİ yeni dəmir yolunun Ermənistandan kənar keçdiyinə görə layihəyə qarşı çıxıb layihəni maliyyələşdirməkdən imtina etdilər. Onlar Bakı-Tbilisi-Qars dəmir yolunun inşası əvəzinə, Qars-Gümrü-Tbilisi dəmir yolu xəttini açmağı tələb edirdilər. Lakin bu tələb Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsi üzündən rədd edildi və Azərbaycan tərəfi layihənin maliyyələşdirilməsini öz üzərinə götürdü. Bu məqsədlə Azərbaycan Gürcüstana güzəştli şərtlərlə 220 milyon dollar kredit verdi. 2007-ci ildə təməli qoyulmuş layihənin icrası 10 il çəkdi. Ləngiməyə səbəb 2008-ci il Rusiya-Gürcüstan müharibəsi və qlobal maliyyə böhranı idi. İki il əvvəl işə düşmüş Bakı-Tbilisi-Qars marşrutu ilə yük daşımalarının həcmi ildən-ilə artır. Gələn il bu marşrutla sərnişin daşınması başlayacaq.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə münasibətdə də Prezident İlham Əliyevin mövqeyi prinsipialdır. Dövlət başçısı dəfələrlə bəyan etmişdir ki. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, münaqişənin həlli yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Problemin nizama salınması üçün yetərli hüquqi baza yaranmışdır. Bu, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının və digər təşkilatların qəbul etdiyi qərar və qətnamələrdir. Aİ ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi müstəqil Azərbaycan heç kimdən asılı olmayan xarici siyasət yürüdür, başqa ölkələrlə əlaqələrində ədalətə və beynəlxalq hüquqa əsaslanır. Bunun nəticəsidir ki, dövlətimiz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə layiqli töhfə vermiş və beynəlxalq siyasi həyatın fəal iştirakçısı kimi prinsipial mövqe nümayiş etdirmişdir. İndi ölkəmiz iki beynəlxalq təşkilata - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına sədrlik edir.

Bu gün Azərbaycan Respublikası tarixin son dərəcə mürəkkəb mərhələsində müstəqil xarici siyasətini uğurla həyata keçirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik".

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Prezidentin siyasətində əhalinin sağlamlığı əsas prioritetlərdəndir

Səhiyyə ölkə üçün ən vacib sahələrdən biridir. Səbəbi çox sadədir: insanların sağlamlığı ilə birbaşa əlaqəli olan yeganə xidmət sahəsidir. Tibbi xidmətlər sayəsində insanların sağlamlığı etibarlı qorunursa, o zaman ölkənin də hərtərəfli inkişafına zəmin yaradılır.

Ölkəmizdə səhiyyənin cəmiyyət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların sağlamlığına xoş gələcəyinə həsr edən Ulu Öndər vaxtilə bu sahəni qiymətləndirərək demişdir: "Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir..."

Azərbaycan Prezidenti İlham Əliyevin də hakimiyyətə gəlişinin ilk günlərindən yürütdüyü siyasətin insan amilinə hesablanması birmənalı şəkildə, hətta beynəlxalq təşkilatların təmsilçilərinin də diqqətini çəkməkdədir. Bu mənada yola salınan ötən hər il, digər sahələrdə olduğu kimi, səhiyyədə də özünün inkişaf göstəriciləri ilə tarixə yazılır.

Aparılan quruculuq işləri ilə yanaşı, səhiyyə islahatlarının da həyata keçirilməsi insanların layiq olduğu səviyyədə yaşamasının təmin edilməsində mühüm rol oynayır. Sosial-iqtisadi islahatların səmərəliliyi, vətəndaşların güzəranlarının daha da yaxşılaşdırılması, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər, tibbi xidmətin keyfiyyətinin və coğrafiyasının genişləndirilməsi, ümumiyyətlə, rifahın davamlı yüksəlişi demoqrafik göstəricilərdə də öz əksini tapır.

Ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə Azərbaycan Prezidentinin müvafiq tapşırığı, səhiyyə sistemində qəbul edilmiş dövlət proqramları son illər respublikada uğurla icra olunur. Tibbi müayinə zamanı aşkar olunan xəstələr qeydiyyata alınır və müalicəsini davam etdirir. Ümumiyyətlə isə, ahıl, qoca, kimsəsiz, sosial qayğıya ehtiyacı olan, eləcə də torpaqlarımızın və dövlətçiliyimizin qorunması zamanı əlil və şikəstə çevrilən vətəndaşların, müxtəlif yaş qrupuna daxil olan əhalinin kütləvi müayinələri diqqət mərkəzində saxlanılır.

Ölkədə dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə belə yüksək ixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə həkim briqadaları tərəfindən yerlərdə müayinə-müalicə tədbirləri həyata keçirilir. Azərbaycan Prezidentinin 2013-cü il 10 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrasını təmin etmək üçün respublika səhiyyəsində ardıcıl layihələr icra olunur. İnsanlara göstərilən tibbi xidmətin səmərəliliyi ildən-ilə yüksəldilir.

Respublikada səhiyyəyə dövlət qayğısı artıq regionlarda da öz müsbət nəticələri ilə müşahidə olunmaqdadır. Xatırladaq ki, ötən il Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 15 təcili tibbi yardım avtomobili təqdim olunub. Bu, muxtar respublikada, hər şeydən əvvəl tibbi xidmətin keyfiyyətcə yeni mərhələyə keçməsi deməkdir. Bundan savayı Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin insan həyatı üçün mühüm olan cihazla təmin edilməsi oradakı mövcud səhiyyə xidmətinin günün tələbləri səviyyəsində göstərilməsində mühüm amil hesab edilir. Bununla yanaşı, təcili yardım, elektrokardioqrafiya, exokardioqrafiya, EKQ-tredmil, rentgen, çoxprofilli diaqnostika, hemodializ, cərrahiyyə, kardiocərrahiyyə kimi mühüm şöbələr, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş səyyar laboratoriyalar, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələrin fəaliyyətindən əhalinin razılığı gündən-günə artmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyev bu il mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində bildirmişdir ki, burada istehsal ediləcək şprislər bizim səhiyyə sistemində istifadə olunacaq və beləliklə, Azərbaycan bu sahədə də idxaldan asılılığı aradan götürəcək: "...Bu zavodda bizim siyasətimiz öz əksini tapır. Çünki idxaldan asılılığı azaltmaq bizim üçün əsas məsələlərdən biridir. Bu günə qədər biz şprisləri xaricdən alırdıq, indi isə buna ehtiyac qalmır, əksinə, verilən məlumata görə, artıq xaricdən sifarişlər də alınır. Hazırda tikilməkdə olan böyük dərman preparatları zavodunun fəaliyyətə başlaması nəticəsində daha çox iş yerləri açılacaq və biz dərman preparatlarının idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik..."

Azərbaycan Prezidenti İlham Əliyevin göstərişlərinə əsasən, səhiyyə sistemində uğurlu islahatlar aparılmış, tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı gücləndirilmiş, bütövlükdə bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Görülmüş işlərin davamı kimi icbari tibbi sığortanın tətbiqi uğurlu siyasətin davamıdır. Bu tibbi-sosial siyasət səhiyyə sisteminin daha da sürətlə inkişaf etməsinə öz töhfəsini verəcək.

"Tibbi sığorta haqqında" qanuna edilmiş dəyişikliklərin 2020-ci ildə qüvvəyə minməsini nəzərə alaraq, ölkənin səhiyyə sisteminin icbari tibbi sığorta tələblərinə uyğunlaşdırılması ehtiyacı yaranmışdır. 2017-ci ilin yanvarından etibarən ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində həyata keçirilməsinə başlanmışdır. Genişmiqyaslı sosial layihə olan icbari tibbi sığortanın başlıca məqsədləri səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, tibbi xidmətlərin əlyetərliyini təmin etməklə, əhalini sağlamlıqla bağlı maliyyə risklərindən qorumaqdır. Ölkədə icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitlərinin daha səmərəli istifadə edilməsinə və əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının artırılmasına zəmin yaradacaq. Əhalisi 340 min nəfər olan pilot ərazilərdə sığorta olunanlar və 30 minə yaxın məcburi köçkün baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlərlə təmin edilmiş və əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü əhəmiyyətli dərəcədə azaldılmışdır.

İcbari tibbi sığortanın tətbiqi nəticəsində pilot ərazilərdə anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşaq əməliyyat olunaraq əlillikdən xilas edilib. Ölkədə bu il 10-dək ailə sağlamlıq mərkəzləri yaradılıb. Bu layihə ölkə üzrə tətbiq ediləcək.

Altı milyon nəfər dövlət hesabına tibbi müayinədən keçəcək. Bu da ölkə rəhbərinin təşəbbüslərindən biridir və çox ciddi sosial addımdır. Hər bir vətəndaş öz sağlamlığına fikir verməli, müayinədən keçməlidir. Dövlət bu şəraiti yaradıb. İlk növbədə hər bir yerdə müasir tibbi avadanlıqlar var. Eyni zamanda dövlət hesabına bu məsələ öz həllini tapır.

Son 15 il ərzində ölkəmizdə 640 xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Ölkəmizin hər bir şəhərində və ya onların mütləq əksəriyyətində müasir xəstəxanalar artıq inşa olunub və bu işlər davam etdirilir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibbi mərkəz fəaliyyət göstərməsin.

5 milyondan çox insan hər il dövlət xətti ilə tibbi müayinədən keçir. Bu, Azərbaycan Prezidentinin əhali tərəfindən alqışlarla qarşılanan təşəbbüslərindən biridir. Gizli deyil ki, belə təşəbbüslər dünyanın nadir ölkələrində həyata keçirilir. Bunun bir məqsədi var: vətəndaşlar, əgər onların sağlamlığında hər hansı bir problem varsa, onu vaxtında aşkar etsinlər və yüksək səviyyəli müalicə alsınlar. Bu proqram nəticəsində minlərlə insan artıq lazımi səviyyədə müalicə olunur.

Bütün bunlar Azərbaycan Prezidentinin dövlətin öz vətəndaşlarının hər bir sahədə yanında olması siyasətinin bariz təcəssümüdür. Əhalinin bütün təbəqələrini əhatə edən bu diqqət və qayğının davamlı olması isə dövlət başçısının hər bir vətəndaşın Prezidenti olacağına dair verdiyi vədə sadiqliyidir!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***





# Təzə məktəb, təzə yol

Qışın ilk günlərindən biri. Sazaqlı külək qarı sovurub dərələrə tökür. Yol dağlara qalxır. Cəmi dörd aydır istifadəyə verilib. Sal qayalar çapılıb, körpülər salınıb. Dəniz səviyyəsindən 2 min 400 metr hündürlükdə yerləşən Orand kəndinə 15 kilometr asfalt yol çəkilib.

Qonşu Lüləkəran, Şinəband, Nuravud, Zərdəbərə, Sorsçay kəndləri də bu yolun üstündədir, əhalinin gediş-gəlişi, yüklərin daşınması asanlaşıb. Buranın ağsaqqalları təzə yolu "İlham Əliyev yolu" adlandırırlar.

Möhtərəm Prezident keçən ilin oktyabr ayında Lerikə növbəti səfərində Orand camaatının daha bir arzusunu gerçəkləşdirib - kənddə 180 şagird yeri olan orta məktəbin tikintisi barədə sərəncam imzalayıb. Bir ildə dağ yolları ilə inşaat materialları daşınıb, tikinti başa çatdırılıb. Fənn kabinetləri, laboratoriyalar müasir tədris avadanlıqları ilə təchiz olunub.

Yeni il ərəfəsində məktəb öz qapılarını müəllim və şagirdlərin üzünə açdı. Bu münasibətlə ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirildi. Lerik Rayon İcra Hakimiyyəti başçısının Humanitar məsələlər üzrə müavini Arzu Vəliməmmədova pedaqoji kollektivi, şagirdləri təbrik etdi. O dedi ki, bu məktəb son illərdə rayonda tikilən 74-cü təhsil ocağıdır. Daha 10 kənddə məktəb tikintisi davam etdirilir.

Şahin Əzimov həmkəndliləri adından həm asfalt yolun çəkilməsinə, həm də məktəb tikintisinin qısa müddətdə başa çatdırılmasına göstərdiyi qayğı və diqqətə görə ölkə rəhbərinə dərin minnətdarlığını bildirdi.

Azərbaycan Respublikası Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva təbriklərə qoşuldu, pedaqoji kollektiv qarşısında duran vəzifələrdən söhbət açdı.

Zəng çalındı, şagirdlər geniş və işıqlı sinif otaqlarına keçdilər. Təzə məktəbdə dərs başlandı.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***Əməkdar jurnalist***

# "Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər" mövzusunda konfrans keçirilib






Dekabrın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov partiyanın ənənəvi olaraq ilin sonuna yaxın bu və ya digər əhəmiyyətli mövzularla əlaqədar konfrans keçirdiyini, fikir mübadiləsi apardığını diqqətə çatdırıb.

Dekabrın 23-də ölkəmizdə bələdiyyə seçkilərinin keçirildiyini və YAP-ın da seçkilərdə öz namizədləri ilə iştirak etdiyini deyən Əli Əhmədovun sözlərinə görə, Azərbaycanda 1606 bələdiyyə üzrə xeyli sayda namizədlər mübarizə aparıblar. O qeyd edib ki, Mərkəzi Seçki Komissiyasının açıqladığı ilkin nəticələrə və partiyanın müşahidəçilərinin verdiyi məlumatlara əsasən, YAP-ın namizədlərinin əksəriyyəti seçicilərin səsini qazanıb. YAP-ın təmsilçilərini əldə etdikləri qələbə münasibətilə təbrik edən Əli Əhmədov əminliyini bildirib ki, seçkilərdə qalib gəlmiş partiya üzvləri bələdiyyələr vasitəsilə xalqa xidmət edəcək və ölkəmizin ümumi inkişafına öz töhfələrini verəcəklər.

Konfransın mövzusunun təhsil sahəsi ilə bağlı olduğunu deyən Əli Əhmədov bunun təsadüfi olmadığını söyləyib. O deyib ki, bütövlükdə inkişafın fundamental əsaslarından ən birincisi təhsildir. Baş Nazirin müavini qeyd edib ki, tarix boyu xalqlar yalnız elm və təhsil sayəsində inkişafa nail ola biliblər: "Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, insan kapitalının inkişaf etdirilməsi həyata keçirilən siyasətin qayəsini təşkil edir. Son illər təhsilin inkişafı ilə bağlı böyük layihələr həyata keçirilib, məktəblər tikilib, təhsilin məzmununun yüksəldilməsi istiqamətində addımlar atılıb. Biz inanırıq ki, təhsilin inkişafı iqtisadiyyatın inkişafının əsasını təşkil edəcək. İnanıram ki, təhsil işçiləri bu sahədə səylərini əsirgəməyəcəklər".

Əli Əhmədov bildirib ki, konfransın keçirilməsinin təsadüf etdiyi 24 dekabr tarixi Azərbaycan Prezidenti İlham Əliyevin doğum günüdür. Onun sözlərinə görə, Azərbaycanın inkişafı, iqtisadi uğurlar, sosial layihələrin həyata keçirilməsi, ölkənin dünyada müasir imicinin, insanlarda gələcəyə ümidin formalaşması, ordunun gücləndirilməsi və digər nailiyyətlər Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini həyata keçirməsinin real təzahürüdür: "İnsanlar aydın dərk edirlər ki, Azərbaycanın gələcəyi Heydər Əliyev siyasəti və Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi ilə bağlıdır. Ona görə də insanlar Prezident İlham Əliyevə inanırlar". Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edən Əli Əhmədov dövlət başçısına cansağlığı və Azərbaycanın inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. "Xalqımız, o cümlədən Yeni Azərbaycan Partiyası xoşbəxtdir ki, onun Prezident İlham Əliyev kimi lideri var", - deyə Əli Əhmədov vurğulayıb.

Konfransda çıxış edən Təhsil naziri Ceyhun Bayramov bildirib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən sosial-iqtisadi islahatlar ölkəmizin iqtisadi qüdrətini daha da artırıb. Həyata keçirilən genişmiqyaslı islahatlar təhsil sahəsini də əhatə edib. Son illərdə təhsilin inkişafı istiqamətində strategiya və proqramlar həyata keçirilib. Bu gün təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, dövlət siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən çoxsaylı proqramlar, sərəncamlar imzalanıb. 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilib. Ölkə Prezidentinin davamlı diqqət və qayğısı, həyata keçirilən proqramlar, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə 2003-2019-cu illər ərzində 3300-ə yaxın məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da bütün məktəblərin 74 faizini təşkil edir. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb. İkinci növbədə oxuyan şagirdlərin sayı 35 faizdən 14 faizə enib.

Nazir qeyd edib ki, təhsil sahəsində aparılan əməkhaqqı islahatları da diqqətdən kənarda qalmamalıdır. Ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi uğurla başa çatdırılıb, ümumilikdə 150 mindən çox müəllimin həftəlik dərs yükü 1.5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb. Bu tədbirlərin davamı kimi ölkə Prezidentinin sərəncamına əsasən müəllimlərin aylıq vəzifə maaşı cari il sentyabrın 1-dən orta hesabla daha 20 faiz artırılıb və beləliklə, orta aylıq əməkhaqqı 600 manata çatıb. Bu artımlardan sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı təxminən 5 min nəfər təşkil edib.

Ceyhun Bayramov son illərdə ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunduğunu və bir sıra əsaslı nailiyyətlər əldə edildiyini diqqətə çatdırıb. Məktəbəqədər təhsilin əhəmiyyətindən danışan nazir UNICEF və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən 3-5 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması layihəsindən danışaraq bildirib ki, cari tədris ilində bu qrupların sayı artırılaraq 328-ə, uşaqların sayı isə 6 min nəfərə çatdırılıb. Növbəti ildə daha 250 qrupun yaradılması, cəlb olunan uşaqların sayının 12 min nəfərə çatdırılması nəzərdə tutulur.

Təhsil naziri müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində görülən işlərdən də söz açıb. Vurğulayıb ki, həyata keçirilən bütün tədbirlər cəmiyyətdə işə qəbulun obyektivliyinə inam formalaşdırıb və 2019-cu ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb, müraciət edənlərin sayı 54 mini ötüb.

Nazir bildirib ki, cari ildə 500-dən çox bal toplayanların hər 4 nəfərindən biri müəllimlik ixtisaslarını seçib ki, bu da istər müəllim peşəsinin rəqabətliliyi, istərsə də təhsilin keyfiyyəti haqqında müsbət proqnozlar verməyə imkan verir.

İstedadlı uşaqlarla iş sahəsində görülən tədbirləri diqqətə çatdıran Ceyhun Bayramov deyib ki, respublika və beynəlxalq olimpiadalarda şagirdlərin uğuru ilbəil artır. Cari ildə fənn olimpiadalarında 30 mindən çox şagird iştirak edib ki, bu da əvvəlki illərə nisbətən 5 dəfə çoxdur. 2019-cu ildə beynəlxalq olimpiadalarda məktəblilərimiz 21 gümüş, 18 bürünc medal və 6 həvəsləndirici mükafat əldə edib, 2013-2019-cu illərdə isə 4 qızıl, 50 gümüş, 126 bürünc, 35 həvəsləndirici mükafat olmaqla ümumilikdə 180 medal qazanıb.

Tədrisdə İKT-dən istifadə imkanlarının genişləndirilməsi, "Rəqəmsal bacarıqlar" layihələri barədə məlumatları diqqətə çatdıran Ceyhun Bayramov qeyd edib ki, cari tədris ilində ilk dəfə olaraq 6000-dən çox şagird əhatə edilməklə məktəblərdə STEAM-in (təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ öyrədilməsi) tədrisinə start verilib. Layihənin tətbiq edilməsində məqsəd müasir təhsil çağırışları əsasında inkişaf etmiş ölkələrdə tətbiq edilən təhsil yeniliklərinin ölkəmizdə həyata keçirilməsi imkanlarının öyrənilməsi və tədris edilməsidir. Növbəti ildən regionların da STEAM layihəsində iştirakının təmin edilməsi və şagirdlərin sayının 20 minə çatdırılması nəzərdə tutulur.

Nazir qeyd edib ki, son illərdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi və bu sahənin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparılıb. Yeni inkişaf trendləri əsas götürülməklə universitetlərin kadr potensialı və maddi-texniki bazası gücləndirilib, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atılıb.

Ceyhun Bayramov bildirib ki, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, habelə gənclər üçün Prezident mükafatının təsis edilməsi onların daha yaxşı təhsil ala bilməsi, təhsilin əlçatanlığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Təhsil naziri məlumat verib ki, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncama əsasən, ali məktəblərdə müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 16000 vahid artırılıb, təqaüd alan tələbələrin sayı cari tədris ilində 45 faizə çatdırılıb, 2020-2021-ci tədris ilində isə 50 faizə çatdırılması nəzərdə tutulub.

# XALQ ƏMANƏTİ: Tağı Tağıyevin həyat palitrası

*Tağı Əzizağa oğlu Tağıyev 1917-ci il noyabr ayının 7-də Bakı şəhərində zərgər ailəsində anadan olmuş, Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirdikdən sonra 1940-1941-ci illərdə Moskva Rəssamlıq İnstitutunda təhsilini davam etdirmişdir.*





Tağı Tağıyev əsasən tematik tablolar, natürmort, portret, mənzərə və məişət səhnələrinin müəllifidir. Azərbaycanda realist boyakarlığın yaradıcılarından olan Tağıyev portret ustası kimi daha məşhurdur. Onun yaradıcılığında tarixi mövzular, tarixi şəxsiyyətlərin təsviri, zəhmətkeş insanların obrazları, əməyin tərənnümü, doğma təbiətin təsviri mühüm yer tutur. Sənətkarın "Koroğlu", "Poladəridən", "Qaynaqçı", "Göygöl", "Qarlı yollar", "Xalçasatan", "Uşaqlıq xatirələri", "Abşeron silsiləsi", "El gözəli", "Qarayanız qız" və bir çox rəsm əsərləri Praqa, Pekin, Dakar, Bağdad və s. ölkələrdə nümayiş etdirilmiş və böyük rəğbətlə qarşılanmışdır. Fırça ustasının yaratdığı "Qara Qarayev" və "Səttar Bəhlulzadə" tabloları dünyanın bütün sərgi salonlarında maraqla qarşılanmışdı.

Dekabrın 20-də Xalq Bankın əsas binasının 16-cı mərtəbəsində yerləşən bədii qalereyada "Xalq Əmanəti" layihəsi çərçivəsində nəşr olunan "Tağı Tağıyev. Rəngkarlıq və qrafika" bədii albomunun təqdimatı və rəssamın əsərlərindən ibarət sərginin açılışı keçirilmişdir. Layihənin sayca 19-cu nəşrinə rəssamın yaradıcılığının müxtəlif mərhələlərinə dair ehtiva edən əsərləri daxil edilmişdir. Tədbirdə ölkəmizin sənət və elm adamları, bank sektorunun nümayəndələri, ictimai xadimlər, rəssamın ailə üzvləri iştirak edirdilər.



Gecənin aparıcısı, respublikanın Əməkdar artisti Dilarə Səlim Xalq Bankın illərdir həyata keçirdiyi nəcib missiyadan söz açıb. "Xalq Əmanəti" layihəsinin xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması işində təqdirəlayiq iş olduğunu vurğulayan aparıcı sözü Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Xalq rəssamı Ömər Eldarova verib. Akademik albom üzərində çalışan insanlara minnətdarlığını bildirib və gördüklərindən böyük zövq aldığını, Tağı Tağıyevin dahi rəssam və böyük müəllim olduğunu dilə gətirib. "Onun əsərləri mənə illər əvvəl böyük təsir göstərirdi, indi də həmin hissləri yenidən yaşayıram. Sənət zamanla sınanır, zaman isə Tağı Tağıyevin xeyrinə işləyir. Mən bugünkü tədbirlə bağlı hamını təbrik edirəm", - deyə Azərbaycan incəsənətinin canlı korifeyi söyləyib.

Albomun mətninin müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova Tağı Tağıyevi milli rəngkarlığımızda böyük iz qoymuş sənətkar, yaradıcılığı zəngin məktəb olan ustad adlandırdı.

Tağı Tağıyevin oğlu, rəssam Əkrəm Tağıyev ailəsi adından banka və layihənin yaradıcı kollektivinə minnətdarlığını bildirdi. "Xalq Əmanəti" layihəsini Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında möhtəşəm iş adlandırdı.

Tağı Tağıyev bir çox xarici ölkələrdə - Türkiyə, Yunanıstan, İtaliya, Fransa, İspaniyada səfərlərdə olmuş və o ölkələrin adamlarının həyatına dair tablolar çəkmişdir. Avropa və Afrika ölkələrində yaradıcılıq ezamiyyətində olan rəssam, dilindən, dinindən, irqindən asılı olmayaraq insanları, onların ideyalarını bədii boyalarla təsvir edirdi. Həmin səfərdən sonra yaratdığı "Afrikalı qız", "Salam, yeni dünya" əsərlərinə bu gün də böyük maraqla baxılır.

Tağı Tağıyev klassik rəngkarlıq məktəbinin parlaq nümayəndəsi, realistik metodun təməlini qoyan rəssamlardan biridir. Onun yaradıcılığı və milli incəsənətin inkişafında xidmətləri yüksək qiymətləndirilmiş və o, Əməkdar incəsənət xadimi, respublikanın Xalq rəssamı fəxri adlarına layiq görülmüşdü.

Tağı Tağıyevin əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər muzeylərdə saxlanılır.

"Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar üç dildə - Azərbaycan, ingilis, rus dillərində çap olunur.

***"Azərbaycan"***

# Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb




"Dekabrın 23-də Azərbaycanda keçirilən bələdiyyə seçkiləri saat 19:00-da başa çatıb və bütün məntəqələr bağlanıb. Seçkilər 1606 bələdiyyə üzrə 15 min 156 bələdiyyə üzvü yerinə 42 minə yaxın iddiaçının iştirakı ilə keçirilib. Ölkə üzrə bütün məntəqələr - 118 dairənin 5049 məntəqəsi vaxtında, səhər saat 8-də açılıb. Gün ərzində səsvermənin gedişi ilə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) 5 dəfə ictimaiyyəti məlumatlandırıb. Günün sonunda ölkə üzrə seçicilərin 32,72 faizinin səsvermədə iştirak etdiyi məlum olub".

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bələdiyyə seçkilərinin ilkin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

Bildirilib ki, gün ərzində səsvermə prosesini kütləvi informasiya vasitələri ictimaiyyətə çatdırıb. Ümumilikdə bütün məntəqələrdə səsvermə normal keçib, bu və ya digər xoşagəlməz hadisələrlə bağlı əsasən, sosial şəbəkələrdə müəyyən məlumatlar yayılıb. Amma MSK-ya bir müraciət daxil olub. O müraciət aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilib. Çünki məntəqədə baş verən hadisələrlə bağlı müraciət Seçki Məcəlləsinin tələbinə görə, ilkin olaraq müvafiq dairə seçki komissiyasına göndərilməlidir. Əgər iddiaçı dairə seçki komissiyasının qərarından narazı qalarsa, onda MSK-ya müraciət edə bilər. Ona görə biz Seçki Məcəlləsinin tələbinə uyğun olaraq qərarımızı verdik. Onu da qeyd edim ki, gün ərzində MSK-ya rəsmi müraciət daxil olmayıb. Amma sosial şəbəkələrdə yayılan görüntüləri MSK üzvləri artıq ciddi şəkildə araşdırmağa başlayıblar.

MSK sədri qeyd edib ki, ümumilikdə seçkilər sakit şəraitdə keçib, seçicilərin öz iradələrini ifadə etmələri üçün hər cür şərait yaradılıb, onlar da bundan lazımi qaydada istifadə ediblər. Yekunda 1606 bələdiyyə üzrə səsvermə baş tutub. Hazırda 4556 məntəqədən məlumatlar MSK-nın bazasına daxil olub. Bu da ölkə üzrə ümumi məntəqələrin 90,24 faizi deməkdir. Beləliklə, 1475 bələdiyyə üzrə məlumatlar hazırda MSK-nın bazasındadır. Bu, ölkə üzrə mövcud bələdiyyələrin 91,84 faizidir. Yəni, deyə bilərik ki, 1375 bələdiyyə üzrə ilkin nəticələrə görə üzvlərin hamısı artıq məlumdur. Bu, ölkə üzrə mövcud olan bələdiyyələrin 85,62 faizidir. İlkin nəticələrə görə, tam formalaşmış bələdiyyələrdə liderlik edən namizədlərin sayı 12 min 930 nəfərdir. Yəni, bu, ümumilikdə seçiləcək 15 min 156 bələdiyyə üzvünün 85,31 faizini təşkil edir. Gün ərzində MSK-nın 115 - "qaynar xətt"inə 220 müraciət daxil olub. Bunlardan 90-nı seçici siyahısı və məntəqələrin ünvanları ilə bağlı sorğulardır. 130 müraciət isə hüquqi məsələlərlə bağlı və məlumatlandırma xarakterli olub.

Məzahir Pənahov deyib ki, səsvermə məntəqələrinin 1000-də, yəni, təxminən 20 faizə yaxınında veb-kameralar quraşdırılmışdır. Bu veb-kameralara gün ərzində 198069 müraciət olub. Bunlardan 130218-i, yəni, 65,7 faizi ölkə daxilindən, 67851-i isə (34,3 faizi) xaricdən olub. Bu, çox diqqətçəkən rəqəmdir. Yəni, bu, seçkilərə kifayət qədər diqqətin olmasının göstəricisidir. Bundan əlavə, Mərkəzi Seçki Komissiyasının internet səhifəsindən istifadəçi sayı 282627 nəfər olub. Bu da ictimaiyyətin seçkilərə marağının göstəricisidir.

Sonda suallar cavablandırılıb.

# AVCİYA: "Bələdiyyə seçkiləri qanunvericiliyə, demokratik normalara uyğun, şəffaf keçirilib"

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) bu ilin fevral ayından başlayaraq bələdiyyə seçkiləri ilə əlaqədar geniş fəaliyyət proqramı həyata keçirib.

AZƏRTAC xəbər verir ki, assosiasiya bələdiyyə seçkilərinin azad, ədalətli, demokratik keçirilməsinə yardım göstərilməsi, seçkilərin Seçki Məcəlləsinin tələblərinə, Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə və demokratik seçkilər sahəsində beynəlxalq standartlara uyğunluğunu qiymətləndirməsi məqsədilə seçkilərin uzunmüddətli müşahidəsini təşkil edib.

AVCİYA Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı qeyd edib ki, bununla əlaqədar bu il dekabrın 13-də ictimaiyyətə Aralıq Hesabatı təqdim olunub. Hesabatda seçkiqabağı siyasi mühit, söz və mətbuat azadlığı, KİV-in monitorinqinin nəticələri, sərbəst toplaşmaq azadlığı, namizədlərin irəli sürülməsi, qeydə alınması, seçici siyahıları, seçki administrasiyasının fəaliyyəti, təbliğat və təşviqat kampaniyası və AVCİYA haqqında geniş məlumat öz əksini tapıb. Assosiasiya bu il oktyabrın 3-də KİV nümayəndələrinin iştirakı ilə "Bələdiyyə seçkiləri: Yerli və beynəlxalq təcrübə" adlı tədbir, noyabrın 15-də təsdiq edilmiş qrafikə uyğun olaraq regionlarda bələdiyyə seçkiləri ilə bağlı maarifçilik tədbirləri həyata keçirib. Yerli və beynəlxalq təşkilatların Seçki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı müxtəlif dövrlərdə irəli sürdükləri təklif və tövsiyələri AVCİYA ekspertləri təhlil edərək Seçki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı öz təkliflərini irəli sürüblər.

Assosiasiya belə hesab edir ki, seçki ərəfəsi mövcud olan ictimai-siyasi mühit ölkədə azad və şəffaf seçkilərin keçirilməsinə imkan verib. Səsvermə günü 5 dəfə (saat 10.00, 12.00, 15.00, 17.00, 19.00) məntəqələrdəki seçici fəallığının vəziyyəti, müşahidə olunan qanun pozuntuları barədə məlumatlar AVCİYA Seçki Qərargahında toplanaraq ümumiləşdirilib. Assosiasiyanın bələdiyyə seçkilərinin yekunları ilə bağlı ilkin rəyi aşağıdakı kimidir:

AVCİYA-nın bələdiyyə seçkilərindəki müşahidəsinin nəticələri onu deməyə əsas verir ki, müşahidə aparılmış məntəqələrdə seçici fəallığı 39,75 faiz təşkil edib. AVCİYA seçki qərargahının rəhbəri bildirib ki, seçki günü ölkə üzrə bir neçə məntəqədə bəzi çatışmazlıqlar müşahidəçilərimiz tərəfindən qeydə alınıb. Qeydə alınan faktlarla bağlı dərhal məntəqə sədrləri ilə əlaqə saxlanılıb, nöqsanlar aradan qaldırılıb. Bu cür çatışmazlıqlar seçkilərin ümumi nəticələrinə təsir etmək gücündə olmayıb.

Beləliklə, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası həyata keçirdiyi müşahidənin nəticələrinə əsaslanaraq dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərini baş tutmuş hesab edir. Assosiasiya belə hesab edir ki, seçkilər qanunvericiliyə, demokratik normalara uyğun, şəffaf keçirilib.

# Müddətli həqiqi hərbi xidmət çağırışçıları xidmət yerləri haqqında məlumatlandırılıblar

Gələn ilin yanvarında Azərbaycanda müddətli həqiqi hərbi xidmətə göndəriləcək çağırışçılar Silahlı Qüvvələr üzrə xidmət yerlərinə təyinatla bağlı dekabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən SMS vasitəsilə məlumatlandırılıblar.

SHXÇDX-dən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar xidmət edəcəkləri hərbi hissə və qoşun növünü dekabrın 24-dən qurumun rəsmi internet saytının "Elektron xidmət" bölməsinin "Həqiqi hərbi xidmətə çağırılan çağırışçıların hərbi xidmət keçmə yeri haqqında məlumatlar" alt bölməsində özləri haqqında tələb olunan məlumatları müvafiq qaydada daxil etməklə dəqiqləşdirə bilərlər. Bununla yanaşı, müddətli həqiqi hərbi xidmətə göndərilənlər mobil telefonlardan şəxsiyyət vəsiqələrinin nömrələrini (yeni nəsil şəxsiyyət vəsiqələrində isə seriya və nömrəni problemsiz daxil edərək) 9100 nömrəsinə qısa mesaj şəklində göndərməklə də müddətli həqiqi hərbi xidmətə çağırış barədə məlumat əldə edirlər. Bu xidmətdən bütün mobil operatorlara məxsus nömrələri olan şəxslərin istifadəsi mümkündür.

Qeyd edək ki, SHXÇDX-nin internet saytında çağırışçıların məlumatlandırılması xidməti hər il çağırış başlamazdan öncə - dekabr, mart, iyun, sentyabr aylarının sonunda aktivləşir.

"İş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında" Nazirlər Kabinetinin müvafiq qərarına əsasən çağırışçıların xidmət yerlərinə göndərilməsi yanvarın 7-dən etibarən həyata keçiriləcək.

# Mərkəzi Seçki Komissiyasında

## MSK-nın növbəti iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə dekabrın 24-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının hazırlanma qaydası təsdiq olunub.

Sonra 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, operativ şəkildə komissiyanın iclasına çıxarılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib. Kütləvi informasiya vasitələrinin nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda dekabrın 23-də keçirilən bələdiyyə seçkiləri və qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərə dair cari məsələlərə də baxılıb.



### QƏRAR № 22/98

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının hazırlanma qaydası və sayı barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 100.1-100.6-cı maddələrinin tələblərinə görə, səsvermə protokollarının hazırlanması qaydası, mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (Mərkəzi Seçki Komissiyası) qərarı ilə səsvermə gününə ən geci 45 gün qalmış təsdiq edilməli və həmin protokollar səsvermə gününə ən geci 30 gün qalmış müvafiq qaydada hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyasının 25 may 2015-ci il tarixli 10/89 və 10/90 saylı qərarları ilə təsdiq edilmiş müvafiq İzahlarla Milli Məclisə seçkilərlə əlaqədar səsvermənin nəticələrinə dair məntəqə və dairə seçki komissiyalarının yekun protokolları nümunələrinin forma və mətni müəyyən olunmuşdur.

Milli Məclisə seçkilərlə əlaqədar səsvermənin nəticələrinə dair müvafiq seçki komissiyalarının protokolları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən olunmuş nümunələrin forma və mətninə, habelə seçki dairələrinin və seçki məntəqələrinin sayına uyğun olaraq, bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət olmaqla hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında, habelə həmin komissiyaların hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan Milli Məclisin mətbəəsində mətbəə üsulu ilə hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 100-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən olunmuş nümunələrin forma və mətninə uyğun olaraq, bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət, hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında olmaqla, dairə və məntəqə seçki komissiyaları üçün onların sayına uyğun olaraq, habelə həmin komissiyaların hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan səsvermənin nəticələrinə dair müvafiq seçki komissiyalarının protokolları Milli Məclisin mətbəəsində mətbəə üsulu ilə hazırlansın.

2. Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə və Milli Məclisin mətbəəsinə həvalə edilsin.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/99

### 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 06 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 117 saylı Oğuz - Qəbələ seçki dairəsindən Böyük Söyüdlü bələdiyyəsi üzrə qeydə alınmış namizəd Kərimov Mürvət Mikayıl oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü Böyük Söyüdlü, Çaldaş və Qarabulaq kəndlərində seçkinin düzgün aparılmadığını, vətəndaşların hüquqlarının pozulduğunu və seçkilərin yenidən keçirilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 117 saylı Oğuz - Qəbələ seçki dairəsindən Böyük Söyüdlü bələdiyyəsi üzrə qeydə alınmış namizəd Kərimov Mürvət Mikayıl oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 06 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/100

### 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 02 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində Yardımlı rayonu Astanlı kənd sakini Tağıyev Rafiq İslam oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə Aşağı Astanlı bələdiyyəsinə keçirilən seçkilərdə həmin seçki dairəsinin 7, 8 və 9 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının baş verməsini iddia etmiş, bu pozuntuların araşdırılmasını və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün seçki komissiyasına daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində Yardımlı rayonu Astanlı kənd sakini Tağıyev Rafiq İslam oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 02 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/101

### 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 03 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 24-də keçirilən bələdiyyə seçkilərində 67 saylı Cəlilabad şəhər seçki dairəsindən seçici Tağıyev Oqtay Aslan oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək Sərhədabad bələdiyyəsi üzrə seçkilərin saxtalaşdırıldığını və seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 67 saylı Cəlilabad şəhər seçki dairəsindən seçici Tağıyev Oqtay Aslan oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 03 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/102

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 04 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsindən Şəhriyar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Natiq Məmməd oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 85 saylı Şamaxı seçki dairəsinin 12 saylı seçki məntəqəsində Şəhriyar bələdiyyəsinə keçirilən səsvermənin Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) tələblərinə zidd keçirildiyini, məntəqə seçki komissiyasının sədri tərəfindən səslər hesablanarkən qanunvericiliyin tələblərinin pozulmasını və müşahidəçilərin zaldan çıxarılmasını bildirmişdir.

Müraciət Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 85 saylı Şamaxı seçki dairəsindən Şəhriyar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Natiq Məmməd oğlunun seçki günü həmin seçki dairəsinin 12 saylı seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 04 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/103

### 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 05 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində seçici Abbasov Bayram Aman oğlu və müşahidəçi Həsənov Vladdin Mehrac oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 117 saylı Oğuz - Qəbələ seçki dairəsinin 33 saylı seçki məntəqəsində qanunsuzluqların baş verməsini iddia edərək, iddia olunan qanunsuz hərəkətlərin araşdırılmasını və qanuna uyğun tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində seçici Abbasov Bayram Aman oğlu və müşahidəçi Həsənov Vladdin Mehrac oğlu tərəfindən 117 saylı Oğuz - Qəbələ seçki dairəsinin 33 saylı seçki məntəqəsində baş verməsi iddia olunan qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 05 saylı müraciət araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/104

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 07 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Lənkəran rayonu Digah kənd sakini Qafarov Fədail Qafar oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 73 saylı Lənkəran şəhər seçki dairəsi üzrə Digah bələdiyyəsinə seçki günü çoxsaylı qanun pozuntularının baş verdiyini, səsvermənin Seçki Məcəlləsinin tələblərinə zidd keçirildiyini, səslərin hesablanmadığını bildirmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. Lənkəran şəhər sakini Qafarov Fədail Qafar oğlunun 73 saylı Lənkəran şəhər seçki dairəsindən Digah bələdiyyəsi üzrə səsvermə günü baş verməsi iddia edilən qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 07 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

### QƏRAR № 22/105

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 08 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Şixverdiyev İlahəddin Xaliddin oğlu 51 saylı Qusar seçki dairəsinin 54 saylı seçki məntəqəsində seçkilərin nəticələrinin saxtalaşdırılmasına dair 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsinin mövcud seçki məntəqəsində səslərin yenidən hesablanmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. Şixverdiyev İlahəddin Xaliddin oğlunun 51 saylı Qusar seçki dairəsinin 54 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin saxtalaşdırılmasına dair iddia edilən qanun pozuntuları ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 08 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*24.12.2019*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva daun sindromlu uşaqlar üçün təşkil olunan şənlikdə iştirak edib



**Dekabrın 24-də Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində Yeni il bayramı ilə əlaqədar şənlik təşkil olunub.**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva şənlikdə iştirak edib.

Leyla Əliyeva mərkəzdə müalicə alan uşaqlarla söhbət edib, onlarla xatirə şəkilləri çəkdirib.

İncəsənət ustalarının çıxışları, hazırlanmış maraqlı şoular uşaqlara unudulmaz anlar yaşadıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla tez-tez görüşür, onların təlim-tərbiyəsi ilə maraqlanır, asudə vaxtlarının səmərəli təşkili üçün keçirilən müxtəlif tədbirlərdə və proqramlarda iştirak edir.

*AZƏRTAC*

# UNEC-də "Azərbaycanın iqtisadi inkişaf strategiyası" mövzusunda konfrans keçirilib

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Azərbaycanın iqtisadi inkişaf strategiyası" mövzusunda respublika elmi konfransı keçirilib.

Konfransda İqtisadiyyat Nazirliyinin, Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmiləri, ölkənin tanınmış elm xadimləri və iqtisadçıları iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən rektor Ədalət Muradov Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı imzaladığı strateji yol xəritələrinə diqqət çəkib. Həmçinin bildirib ki, konfransın əsas məqsədi iqtisadi artımı təhlil edə biləcək yeni "drayver"lərin tapılmasına, eyni zamanda, akademik dairələrlə real iqtisadiyyat nümayəndələrinin müzakirələr aparmasına nail olmaqdır.




Azərbaycanın gələcək iqtisadi inkişafının iqtisadiyyatın rəqəmsallaşmasından keçdiyini deyən rektor bu sahədə əsas məsələnin rəqəmsal iqtisadiyyatın tələblərinə cavab verən, müvafiq kompetensiyalara malik insan kapitalının formalaşdırılması olduğunu vurğulayıb. Rəqəmsal iqtisadiyyatın istehsal amillərinə olan tələbi dəyişdiyi, bu amillərin məhsuldarlığı əhəmiyyətli dərəcədə artırdığı, dəyişikliyin isə daha çox elmtutumlu sahələrdə özünü göstərdiyi qeyd olunub. Ədalət Muradov rəqəmsal iqtisadiyyatın zəruri etdiyi distant, adaptiv, "onlayn", "oflayn" təhsil və mentorluq fəaliyyətinin əhəmiyyətindən də söz açıb. UNEC-də distant təhsillə bağlı uğurlu sertifikat proqramlarının reallaşdırıldığına diqqət çəkən rektor növbəti tədris ilindən UNEC-də bakalavr pilləsi üzrə distant təhsilin həyata keçiriləcəyini bildirib. Həmçinin adaptiv təhsilin regiona gətirilməsi istiqamətində Sankt-Peterburq Dövlət Universiteti ilə əməkdaşlığa başlanıldığını, UNEC-də qeyri-ixtisas fənlərinin "onlayn", ixtisas fənlərinin isə "oflayn" keçiriləcəyini, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində pilot layihə kimi mentorluqla bağlı Türkiyə təcrübəsinin tətbiq olunduğunu deyib.

Konfransda təhsilin iqtisadi artıma daha çox təsir edən keyfiyyət parametrlərinə də toxunulub. UNEC-də bu istiqamətdə tədqiqatların aparıldığına diqqət çəkən Ədalət Muradov əldə olunan nəticələrə görə, hələ də real iqtisadiyyatın tələb etdiyi kompetensiyaların formalaşdırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilmədiyini qeyd edib. O, təhsil proqramlarının köklü surətdə dəyişdirilməsinə ehtiyac duyulduğunu, UNEC-də II ixtisas qrupu üzrə artıq dəyişikliklərə başlanıldığını və növbəti tədris ilindən universitetdə yeni tədris standartlarının tətbiq olunacağını bildirib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda yeni siyasi və iqtisadi tarixin yazıldığını deyib. Ölkənin sosial və iqtisadi inkişafı üçün vacib olan məsələlərdən birinin xarici siyasət olduğunu deyən nazir müavini son 15 ildə ölkə iqtisadiyyatının 3 dəfə artdığını, sosial siyasət məsələlərinin önə çəkildiyini, ölkənin gəlirlərinin daha çox bu sahələrin inkişafına yönəldiyini qeyd edib. Niyazi Səfərov Azərbaycanın iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən danışıb. O, ölkənin iqtisadi inkişaf modelində yeni yanaşmaların ortaya qoyulduğunu, islahatların əsasən innovasiya, texnologiya və qeyri-neft sektorunun inkişafı ilə bağlı olduğunu vurğulayıb.

Sonra Milli Məclisin deputatı Tahir Mirkişili "Dövlət idarəetməsi və iqtisadi inkişaf: müasir texnoloji meyillər" mövzusunda çıxış edib. XXI əsri texnologiyalar əsri adlandıran Tahir Mirkişili onlayn təhsilin əhəmiyyətindən danışıb. O, UNEC-də bu istiqamətdə ciddi addımların atıldığını, uğurlu layihələrin və tədqiqatların həyata keçirildiyini deyib.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müşaviri Mustafa Abbasbəyli isə 2019-cu ilin sosial islahatlarından söz açıb. Ölkədə genişmiqyaslı sosial siyasətin aparıldığını deyən nazirlik rəsmisi bu sahədə büdcə vəsaitlərinin ildən-ilə artırıldığını, əhalinin rifah halının yüksəldildiyini, işsizliyin, yoxsulluğun aradan qaldırıldığını deyib.

Sonra Sumqayıt Dövlət Universitetinin professoru Şəfa Əliyev "Azərbaycanda qeyri-neft sənayesinin diversifikasiyalaşdırılması və ixrac potensialının artırılmasına strateji yanaşmalar", UNEC-in Elmi fəaliyyətin təşkili və idarə olunması departamentinin direktoru, professor Zahid Məmmədov "Biliklərə əsaslanan innovasiyayönümlü universitetlər: yeni çağırışlar və perspektivlər" mövzularında çıxış ediblər.

Konfrans işini 4 bölmə iclasında davam etdirib.

*"Azərbaycan"*

# "Omar" komandası Çövkən Milli Oyunu üzrə Prezident kuboku turnirinin qalibi olub

Dekabrın 24-də Binə Atçılıq Mərkəzinin qapalı manejində Çövkən Milli Oyunu üzrə Prezident kuboku turnirinin final matçı və üçüncü yer uğrunda qarşılaşma keçirilib. Finalda "Buta Golden" komandasını məğlub edən "Omar" klubu kuboka sahib olub.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti Elçin Quliyev, Mədəniyyət naziri Əbülfəs Qarayev, Dünya Etnosport Konfederasiyasının prezidenti Bilal Ərdoğan, ölkəmizin idman ictimaiyyətinin və media nümayəndələri final qarşılaşmasını izləyiblər.

Yarışın bağlanış mərasimində çıxış edən ARAF-ın prezidenti Elçin Quliyev artıq yeddi ildir keçirilən Prezident kuboku turnirinə marağın ildən-ilə artdığını deyib. Son illər ölkəmizdə atçılıq idmanının sürətlə inkişaf etdiyini və bu sahədə mühüm addımların atıldığını diqqətə çatdıran E.Quliyev bildirib ki, Dünya Etnosport Federasiyasının prezidenti Bilal Ərdoğanın bugünkü yarışın finalını izləməsi atçılıq idmanının şöhrətinin bütün sərhədləri aşaraq dünyada geniş yayılmasının göstəricisidir. Turnirin ölkəmizdə atçılıq idmanının inkişafına yüksək diqqət və qayğı göstərən Prezident İlham Əliyevin doğum gününə həsr olunduğunu vurğulayan E.Quliyev əldə edilən uğurlara görə dövlət başçısına minnətdarlığını bildirib. O, atçılıq idmanının sürətlə inkişaf edəcəyinə və Azərbaycanın idman uğurlarının təbliğində mühüm rol oynayacağına əminliyini ifadə edib.






Dünya Etnosport Federasiyasının prezidenti Bilal Ərdoğan turnirin təşkilinin əhəmiyyətini yüksək qiymətləndirib. Son illər Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarına yüksək səviyyədə evsahibliyi etdiyini diqqətə çatdıran Bilal Ərdoğan ölkəmizdə milli idman növlərinin, eləcə də atçılıq idmanının da inkişafının diqqət mərkəzində saxlanıldığını vurğulayıb. O, idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib. Azərbaycan Prezidentinin doğum günü münasibətilə təbriklərini ifadə edən Bilal Ərdoğan Azərbaycanın və Türkiyənin dövlət başçıları İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın qətiyyətli rəhbərlikləri ilə qardaş ölkələrimizin daha böyük uğurlar əldə edəcəyinə əminliyini bildirib.

Mədəniyyət naziri Əbülfəs Qarayev turnirin təşkilinin ölkəmizdə milli idman oyunlarının, o cümlədən Çövkən Milli Atüstü Oyunun inkişafında və təbliğində mühüm rol oynadığını vurğulayıb və komandalara uğurlar arzulayıb.

Turnirin finalında "Buta Golden" komandasını 3:0 hesabı ilə məğlubiyyətə uğradan "Omar" klubu ilk dəfə kuboka sahib olub. Üçüncü yer uğrunda görüşdə isə "Polad" komandası "Sərhədçi"ni məğlub edib - 5:0.

Final matçından sonra qalibləri və turnirin ən yaxşı idmançıları mükafatlandırılıblar. Turnirin ən yaxşı oyunçusu Rauf Tahirov ("Omar"), ən yaxşı atı isə "Şaban" ləqəbli at elan edilib.

ARAF-ın prezidenti Elçin Quliyev fəxri kürsüdə yer alan komandaların üzvlərinə kubok və medalları təqdim edib.

Xatırladaq ki, dekabrın 13-də start verilən turnirin qrup və dörddəbir final mərhələlərinin oyunları Şəkinin Daşüz kəndindəki Respublika Milli Atüstü Oyunları Mərkəzində keçirilib. Qrup mərhələsində 12 komanda 4 qrupda mübarizə aparıb. A qrupunda "Omar", "İsmayıllı", "Murad", B qrupunda "Polad", "Şəki", "Qarabağ", C qrupunda "Buta", "Ağcabədi", "Köhlən", D qrupunda isə "Sərhədçi", "Ağstafa", "Qala" komandaları yer alıblar. Dörddəbir finalda "Sərhədçi" - "Şəki" (1:0), "Buta" - "Murad" (2:0), "Polad" - "Qala" (6:0) və "Omar" - "Köhlən" (4:0) qarşılaşmaları keçirilib.

Binə Atçılıq Mərkəzinin qapalı manejində oynanılan yarımfinal görüşlərində isə "Omar" komandası "Polad"ı 2:1, "Buta Golden" isə "Sərhədçi"ni 4:1 hesabı ilə məğlubiyyətə uğradıb.

Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Atçılıq Federasiyasının dəstəyi ilə keçirilən turnirin ümumi mükafat fondu 50 min manat olub.

Xatırladaq ki, ötənilki turnirin finalında "Sərhədçi" komandası "Omar"ı 1:0 hesabı ilə məğlub etmişdi.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Atçılıq Federasiyası 2019-cu ildə mühüm uğurlar qazanıb




Dekabrın 24-də Binə Atçılıq Mərkəzində Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) cari ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə 2019-cu ildə görülən işlər, qazanılan qələbələr, millimizin bu il Avropa çempionatındakı uğurlu çıxışı ilə bağlı film nümayiş olunub.

Daha sonra mərasimdə müxtəlif nominasiyalar üzrə ilin ən yaxşı idmançıları, məşqçiləri, hakimləri və jurnalistləri mükafatlandırılıblar. İl ərzində federasiyanın fəaliyyətini, idmançılarımızın uğurlarını yüksək səviyyədə işıqlandırdığına görə AZƏRTAC-ın beş əməkdaşı təltif olunub.

Mərasimdə çıxış edən ARAF-ın prezidenti Elçin Quliyev federasiyanın hesabat ilində qarşıya qoyulan məqsədlərə nail olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyevin ölkəmizdə atçılıq idmanının inkişafı ilə bağlı tapşırıqlarının uğurla icra edildiyini vurğulayan E.Quliyev idmanın bu növünün bütün istiqamətləri - konkur, cıdır yarışları, çövkən və polo üzrə yarışların yüksək səviyyədə təşkil olunduğunu bildirib. Federasiya prezidenti 2020-ci ildə daha yüksək nəticələrin əldə olunacağına əminliyini ifadə edib.

Mərasim bədii hissə ilə başa çatıb.

*"Azərbaycan"*

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Çovdar Filiz Emalı Sahəsində ekoloji layihənin icrasına start verilib





"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti IDEA İctimai Birliyinin təşəbbüsü ilə ekoloji siyasətinin davamı olaraq məişət tullantılarının çeşidlənməsi üzrə layihəyə start verib.

Layihə çərçivəsində cəmiyyətin Çovdar Filiz Emalı Sahəsində (ÇFES) tullantıların çeşidlənməsinə başlanılıb. Belə ki, "AzerGold" QSC ilə "Az.Ekol." MMC arasında imzalanan müqaviləyə əsasən ÇFES-də istifadə olunmuş, yararsız pet şüşələri, kağız, karton, plastik tullantıları üçün xüsusi toplama qutuları yerləşdirilib. Sahədə çeşidlənib toplanan tullantılar utilizasiya üçün sözügedən şirkətə təhvil verilərək təkrar emala yönləndiriləcək.

Məişət tullantılarının ətraf mühitə təsirinin minumuma endirilməsi, istifadəyə yararsız plastik qabların yığımı və çeşidlənməsi qaydaları ilə tanışlıq məqsədilə ÇFES-də informativ təlim keçirilib. Tədbir çərçivəsində ərazidə çalışan işçilərə tullantıların çeşidlənməsinin ətraf mühitə mənfi təsirlərin azaldılmasında rolu, tullantıların təkrar emala yönləndirilməsi üçün tələb olunan qaydalar və bu kimi mövzularda təlimatlandırılıblar.

Xatırladaq ki, "AzerGold" QSC tərəfindən nəinki məişət, cəmiyyətin fəaliyyəti nəticəsində formalaşan bütün növ tullantıların düzgün idarə olunması daim xüsusi nəzarətdə saxlanılır. Həmçinin ekoloji tarazlığın qorunmasına daim diqqət yetirən "AzerGold" QSC tərəfindən ÇFES-də ekoloji monitorinq proqramının icrası çərçivəsində mütəmadi olaraq tozölçmə işləri həyata keçirilir, torpaq, su hövzələri və su tutarlarından götürülən nümunələr əsasında təhlillər aparılır. Ərazilərin tullantılardan, təmizlənməsi üçün cəmiyyət tərəfindən, həmçinin mütəmadi iməcilik aksiyaları keçirilir. Təsadüfi deyil ki, "AzerGold" QSC Ətraf Mühiti İdarəetmə Sistemi üzrə ISO beynəlxalq standartlarına dair sertifikatlara layiq görülüb.

*"Azərbaycan"*

## "Azərsu" ASC-nin "Birləşmiş Sukanal" Məhdud Məsuliyyətli Cəmiyyəti tikinti mal-materialların satın alınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, General Akim Abbasov, 25 A, "Azərsu" ASC "Birləşmiş Sukanal" MMC-nin təchizat şöbəsinə (əlaqələndirici şəxs- İlham Həsənova, 055-457-34-66) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb möhürlənmiş təkliflərini 27 dekabr 2019-cu il saat 12:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC "Birləşmiş Sukanal" MMC-nin Bakı, General Akim Abbasov, 25 A nömrəli ünvandakı inzibati binasında 28 dekabr 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Binəqədi rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Dekabrın 24-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.



Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil edilib. Bayram tədbirində iştirak edən uşaqlar Şaxta baba, Qar qız, müxtəlif nağıl qəhrəmanları və məşhur personajlarla görüşüb, rəngarəng bəzədilmiş Yeni il küknarı ətrafında onlarla birlikdə əyləniblər. Şənliyin sonunda bütün uşaqlara bayram hədiyyələri təqdim olunub. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş əhvali-ruhiyyə yaradıb, balacalara əsl bayram ovqatı bəxş edib və onlara əyləncəli anlar yaşadıb.

Yenilənmiş həyət Binəqədi rayonu, 6-cı mikrorayon, Svetlana Məmmədova küçəsi 201, 203, 203B, İsrafil Həşimov küçəsi, 4A ünvanlarında 2200 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.



Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, 400 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyirşər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 70 ədəd ağac və kollar əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# "Azərenerji" və "Azərişıq" son 16 ilin hesabatını verdi

"Azərenerji" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin elektroenergetika strategiyasına uyğun olaraq həyata keçirilən genişmiqyaslı işlərlə bağlı videomaterial paylaşıb.

Videomaterialda Prezident İlham Əliyev tərəfindən yaradılan "Bakıelektrikşəbəkə" və onun bazasında formalaşdırılan "Azərişıq" ASC-lərin, həmçinin "Azərenerji" ASC-nin gördüyü işlər və onların nəticələri barədə ətraflı məlumat verilib. Videoda dövlət başçısının həyata keçirdiyi ciddi islahatlar, tikinti, yenidənqurma və bərpa prosesi elektrik enerjisinin istehsalı, ötürülməsi, idarə edilməsi və paylanması sahələrini bütövlükdə əhatə etdiyi və nəticədə Azərbaycanın necə idxalçı ölkədən ixracatçı ölkəyə çevrildiyi ardıcıllıqla verilib. Həmçinin son 16 ildə tikilən




elektrik stansiyaları, yarımstansiyalar, ötürücü xətlərin əhatə dairəsi və hazırda "Master Plana" uyğun olaraq görülən işlər də videomaterialda geniş əks edilib.

*"Azərbaycan"*


## Azercell abunəçilərinin nəzərinə

25.01.2020-ci il tarixdən etibarən "Azercell Telekom" MMC tərəfindən kağız daşıyıcıda hesab-fakturaların abunəçilərin poçt ünvanına və faksla çatdırma xidməti ləğv ediləcək. Müvafiq dəyişiklik "Azercell"in rəqəmsallaşma istiqamətində apardığı davamlı yeniliklərin tərkib hissəsi olmaqla, son illər ölkəmizdə elektron xidmət, texnologiyaların inkişafı və geniş tətbiqi, onların sayının, eləcə də keyfiyyətinin artırılması və istifadəsinin təşviqi, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi məqsədilə həyata keçirilən ardıcıl tədbirlər nəzərə alınmaqla, elektron xidmətlərin daha da stimullaşdırılması məqsədi daşıyır. Bundan başqa, hesab-fakturaların kağızda çap edilməsi, öz-özlüyündə məhdud təbii resursların israfı ilə nəticələnir ki, bu da müvafiq məlumat mübadiləsinin elektron təşkilini daha da səmərəli edir. Həmçinin nəzərə alınmalıdır ki, bir çox abunəçilərin vaxtilə təqdim etdikləri ünvan məlumatlarının qeyri-dəqiq olması və ya digər səbəblər (abunəçinin başqa ünvana köçməsi, yeni ünvan sisteminin tətbiqi və sair) "Azercell Telekom" MMC tərəfindən ünvana göndərilən hesab-fakturaların alıcıya çatmaması və beləliklə də, poçt orqanları tərəfindən geri qaytarılması ilə nəticələnirdi. Odur ki, "Azercell Telekom" MMC tərəfindən müvafiq xidmətin təkmilləşdirilməsi və lüzumsuz əmək sərfindən qaçılması zərurəti yaranıb. Abunəçilər MX-nə müraciət edərək, ödənişsiz əsaslarla elektron poçt ünvanına hesab-fakturanın göndərilməsi xidmətini aktiv edə bilərlər. Bundan başqa, abunəçilər hesab-fakturalar barədə məlumat əldə etmək üçün digər alternativ imkanlardan da yararlanmaq iqtidarında olacaqlar. Belə ki, "Kabinetim" mobil tətbiqi və veb versiyası üzərindən abunəçilər nömrənin cari vəziyyəti barədə məlumatları yoxlaya, o cümlədən son üç hesab-faktura ilə tanış ola, müxtəlif əməliyyatlar həyata keçirə bilərlər. Həmçinin abunəçilərin nömrənin cari vəziyyəti (o cümlədən hesab-faktura məbləğləri) barədə məlumatı 650 (1 SMS üçün xidmət haqqı - 0,0236 AZN ƏDV daxil) xidməti vasitəsilə əldə etməsi mümkündür. Sadalananlarla yanaşı, abunəçilər istənilən Müştəri Xidmətləri mərkəzinə müraciət etməklə, nömrələrinə dair hesab-fakturanın çap variantını kağız daşıyıcıda pulsuz olaraq əldə etmək imkanına malikdirlər.

**Qeyd:** *Abunəçilər göstərilən dəyişikliklər, hesab-fakturaların elektron poçt ünvanına çatdırılması xidmətinin sifarişi və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (Müştəri Xidmətləri mərkəzləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.*



## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.12.2019-cu il tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcək.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.


## B İ L D İ R İ Ş

***Azərbaycan Dövlət Pedaqoji Universiteti 2020-ci il üçün liftlərə texniki xidmətin göstərilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.***

Maraqlanan təşkilatlar **+99412 498-12-61** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 26.12.2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Üzeyir Hacıbəyli, 68**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatının balansında olan xidməti minik avtomobillərinə texniki-təmir xidmətlərinin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusunda **"Hed Truck Service" MMC** qalib müəyyən edilmiş və təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına hədiyyələrin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusunda **"Kəmər-Qaya" MMC** qalib müəyyən edilmiş və təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin inventarların açıq tender (etender) üsulu ilə satın alınması üzrə 18 dekabr 2019-cu il tarixli yekun protokoluna əsasən "Kəmər-Qaya" MMC qalib elan edilmiş və 18 dekabr 2019-cu il tarixdə müqavilə imzalanmışdır.

**Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev, 13. Əlaqələndirici şəxs: Firudin Məsməliyev.**
**Telefon: (+99412) 497-41-66.**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

20 dekabr 2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dəftərxana mallarının satın alınması üçün keçirilən kotirovka sorğusunda "Nur-SS" MMC qalib olmuş və satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Gəncə şəhəri Nizami rayon qeydiyyat şöbəsinin rəisi Şəlalə Cəfərovaya atası

**ƏJDƏR NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Əzizov Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cavanşir və Yusif Yusibovlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8896
Sifariş 4261
Qiyməti 40 qəpik